Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

31 MAY 2019-cu il
№ 96 (3994)
Qiyməti 50 qəpik

Həftədə 5 dəfə çıxır
Qəzet 2003-cü ildən nəşr olunur

www.baki-xeber.com

# ERMƏNİSTAN ABŞ-ın ANTİ-İRAN BANK SANKSİYALARINA RƏSMƏN QOŞULDU...

■ səh. 6 ■

Prezident enerji sektorunda özəl biznesə rəsmən investisiya yatırmaq imkanı açdı...

■ səh. 13 ■

Separatçı "DQR" rejiminin rəhbərliyində dərin ümidsizlik - Nursultanda planlaşmış Putin-Paşinyan görüşü baş tutmadı

■ səh. 9 ■

"Demokratiya aşiqləri" Almaniya deputatları yenidən qondarma "DQR"də "bal şirəsi" axtarır...

■ səh. 6 ■

"Arsenal" siyasi erməni oyunlarına uymasaydı... Klubun rüsvayçı məğlubiyyətini bununla bağlayırlar...

■ səh. 5 ■

Köçəryan Paşinyana ilk açıq hədəsini etdi - "Səhv etmişəm, səni devirəcəyəm"

■ səh. 11 ■

Paşinyanın Nursultanda (Astanada) erməni iş adamları ilə görüşü niyə baş tutmadı...

■ səh. 10 ■

"Arsenal" - "Çelsi"dən sonra Azərbaycan 2020-də Avropa çempionatının da final oyunlarını uğurla keçirməyə kart-blanş aldı...

■ səh. 12 ■




■ səh. 8 ■

## Mxitaryana görə Ermənistandan futbolçu alınmasına son qoyuldu - London idman hüquqşünaslarının təcili toplantısı...



Trampın bir həftədə İlham Əliyevə 2 isti təbrik məktubu - Ermənistan xadimlərinin ABŞ-a uğursuz səfərinin ardınca...

■ səh. 3 ■



Paşinyanın iki pərdəarxası oyunu və bir hədəf - Avrasiya İB-nin də KTMT kimi nüfuzdan salınma prosesi gedir...

■ səh. 11 ■

Son 27 ildə ilk erməni hadisəsi - qondarma «DQR» «rəhbərləri» Ermənistanda respublika tədbirlərinə gəlmədi...

■ səh. 10 ■

■ səh. 3 ■

Məmmədyarov Mnatsakanyana "detallar vermişik" dedi, Rusiya Kazan prinsipləri ilə danışıqları təsdiqlədi - Ermənistan yeni pozuculuğa başlayıb...



■ səh. 5 ■

Avroliqanın final oyunundan qabaq Azərbaycanı qaralayanların yalana görə üzr istəməsi gündəmdə - başda Britaniya XİN olmaqla...



■ səh. 7 ■

Avroliqanın finalını risqlərsiz keçirmək üçün Azərbaycana imkan verən əsaslar...



■ səh. 15 ■

Azərbaycanda ən çox və ən az cinayət baş verən rayonlar - eyni ölkədə fərqlilik nəyin nəticəsidir?



■ səh. 13 ■

"ParaBokt"a qarşı ittiham - bank olmayan kredit təşkilatı müştərinin qızıllarını qaytarmamaqda günahlandırılır...



## Maliyyə Monitorinqi Xidməti Vergilər Nazirliyinin tabeliyinə verildi

**Prezident İlham Əliyev cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncamla Vergilər Nazirliyi Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin həmin Nazirliyin tərkibində fəaliyyət göstərməsinin təmin edilməsi məqsədilə müvafiq normativ hüquqi aktların layihələrini hazırlayıb Prezidentə təqdim etməlidir.

Sərəncamda nəzərdə tutulmuş normativ hüquqi aktların layihələri hazırlanarkən cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində beynəlxalq standartlara və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərə riayət olunması təmin edilməli, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində Azərbaycan Respublikasının müvafiq qurumlarının üzv olduğu beynəlxalq təşkilatlar bu sahədə idarəetmənin təkmilləşdirilməsi məqsədilə görülən tədbirlər barədə məlumatlandırılmalıdır.

## XİN Polşa vətəndaşının adını "arzuolunmaz şəxslər" siyahısından çıxardı

**Polşa Respublikasının vətəndaşı Piotr Leoniak Xarici İşlər Nazirliyinə məktubla müraciət edərək, adının "Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinə qanunsuz səfər etmiş xarici ölkə vətəndaşlarının siyahısı"ndan çıxarılmasını xahiş edib.**



Xarici İşlər Nazirliyi Mətbuat xidmətindən baki-xeber.com-a verilən məlumata görə, Azərbaycan Respublikasının beynəlxalq tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyü və suverenliyi, eləcə də ölkəmizin qanunlarına hörmət etdiyini bildirən Piotr Leoniak müraciətində səfərin nəticələri barədə məlumatsız olduğunu qeyd edib. Habelə o, işğal olunmuş ərazilərimizə gələcəkdə bu cür qanunsuz səfərlərdən çəkinəcəyini bildirib. Onun müraciəti müvafiq qaydada nəzərdən keçirilib və adının arzuolunmaz şəxslər siyahısından çıxarılmasına dair qərar qəbul edilib.

## Qaz İxracatçıları Forumu Azərbaycanda 1 trilyon kubmetrə yaxın aşkar olunmamış qaz ehtiyatları olduğunu bəyan etdi

**Azərbaycanda 1 trilyon kubmetrə yaxın aşkar olunmamış qaz ehtiyatları var. "Trend"in məlumatına görə, bunu Qaz İxracatçıları Forumunun baş katibi Yuri Sentyurin Bakıda 26-cı Beynəlxalq Xəzər Neft və Qaz konfransında bildirib.**




O deyib ki, ölkədə 1,4 trilyon kubmetrdən çox təsdiq olunmuş qaz ehtiyatları var: "Ehtimal olunur ki, aşkar olunmamış qaz ehtiyatlarının həcmi 1 trilyon kubmetrə bərabərdir. Ölkə Xəzər regionunda vacib qaz tədarükçüsünə çevrilir və ixrac potensialını fəal şəkildə genişləndirir".

Baş katib hesab edir ki, "Abşeron" yatağının işlənilməsinin birinci mərhələsi 2023-cü ildə başlayacaq, 2025-ci ilədək isə burada hasilat beş milyard kubmetrə çatacaq.

## Rövnəq Abdullayev yaxınlarda hansı yataqlardan neft çıxarılacağını açıqladı

**"Qarabağ" və "Abşeron" yataqlarında neft və qaz hasilatının 2021-2022-ci illərdə başlanılması planlaşdırılır. "Trend"in məlumatına görə, bunu SOCAR-ın prezidenti Rövnəq Abdullayev jurnalistlərə açıqlamasında deyib.**

Onun sözlərinə görə, yaxın zamanlarda "Əşrəfi", "Dan ulduzu", "Aypara", "Şəfəq-Asiman" yataqlarında qazma işlərinin başlanması planlaşdırılır. "Bulla-dəniz" yatağı barədə danışan R.Abdullayev qeyd edib ki, əsas məqsədlərdən biri qaz hasilatının artırılması və neft hasilatının sabit səviyyədə saxlanmasıdır.

# Azərbaycan Prezidenti MQ həmsədrləri ilə Qarabağ münaqişəsinin həlli perspektivlərini müzakirə etdi

**Prezident İlham Əliyev mayın 30-da ATƏT-in Minsk Qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, Rusiyadan olan həmsədr İqor Popovu, ABŞ-dan olan həmsədr Endrü Şeferi və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul edib.**



Bu barədə Prezidentin Mətbuat xidmətindən baki-xeber.com-a məlumat verilib. Görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

# ATƏT MQ həmsədrləri Bakıya gəldiyi gün ermənilər Ağdamda hərbi qulluqçumuzu snayper atəşilə şəhid etdi...

**AR XİN Mətbuat Xidməti idarəsinin mətbuat açıqlamasında deyilir ki, mayın 30-da Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttinin Ağdam rayonu istiqamətində Ermənistan silahlı qüvvələri tərəfindən atəşkəs rejimi kobud şəkildə pozulub və snayperdən açılan atəş nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçusu Omarov Aqil Akif oğlu şəhid olub.**




Xüsusilə qeyd etmək istərdik ki, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin bölgəyə səfəri zamanı Ermənistan silahlı qüvvələri tərəfindən törədilən bu qanlı əməl təxribat xarakteri daşıyır və münaqişənin həlli üzrə aparılan danışıqları pozmaq məqsədinə xidmət edir.

İşğalçı Ermənistan rəhbərliyinin sözdə münaqişənin həlli üzrə sülh şəraitinin yaradılması bəyanatlarının real və praktiki addımlarla müşayiət olunmadığını, əksinə Ermənistanın təxribatçı fəaliyyəti ilə sülh danışıqlarına xələl gətirmək niyyətini açıq şəkildə nümayiş etdirən bu qanlı əməl qəti qəbuledilməzdir və danışıqlar prosesinə zərbə vurur.

Törədilmiş qanlı cinayətin bütün mümkün mənfi nəticələrinə görə məsuliyyət tam şəkildə Ermənistanın üzərindədir.

# Bakı məktəblisinin intihar hadisəsinin istintaqına Təhsil İdarəsinin mütəxəssisləri də cəlb edilib

**Xəbər verildiyi kimi, Bakı şəhəri Səbail rayonu 162 nömrəli tam orta məktəbin 8-ci sinif şagirdi, 2004-cü il təvəllüdlü Elina Hacıyevanın təhsil aldığı məktəbin üçüncü mərtəbəsindən özünü ataraq intihar etməsi faktı ilə bağlı Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə Bakı Şəhər Prokurorluğunda başlanmış cinayət işi üzrə məktəbin direktoru Sevinc Abbasova Cinayət Məcəlləsinin 143 (təhlükədə qoyma) və 314.2-ci (səhlənkarlıq, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunaraq, məhkəmənin qərarı ilə barəsində ev dustaqlığı qətimkan tədbiri seçilib.**



İstintaq qrupu tərəfindən cinayət işi üzrə bütün halların hərtərəfli, tam və obyektiv araşdırılmasını təmin etmək məqsədi iləBakı Şəhəri üzrə Təhsil İdarəsinin mütəxəssisləri cəlb edilməklə intensiv istintaqtədbirləri həyata keçirilir. Belə ki, iş üzrə çoxsaylı şahidlər, o cümlədən Elina Hacıyevanın təhsil aldığı məktəbin vəzifəli şəxsləri, müəllimləri və sinif yoldaşları dindirilib, videomüşahidə kameralarına, mobil telefonlara, sənədlərə baxış keçirilib, mobil telefonlarla aparılan danışıqlara, yazışmalara dair məlumatlar əldə edilməklə təhlil olunub.

Cinayət işi üzrə yüksək ixtisaslı, böyük elmi və iş təcrübəsi olan peşəkarekspertlər cəlb edilməklə komisyon məhkəmə-tibbi, məhkəmə-xətşünaslıq, məhkəmə kompüter-texniki, məhkəmə-psixoloji, məhkəmə-fonoskopik ekspertizaları təyin edilib, müvafiq sorğular verilib.

E.Hacıyevaya tibbi yardım göstərilməsi məqsədilə təcili tibbi yardım xidmətinə vaxtında müraciət olunması, hadisə yerində və xəstəxanada lazımi tibbi yardımın göstərilməsi, müalicəsinin diaqnoza uyğun aparılması, xəstəxanaya gec çatdırılmasının ölümü ilə səbəbli əlaqəsinin olması və sair əhəmiyyət kəsb edən halların aydınlaşdırılması istiqamətində zəruri prosessual tədbirlər həyata keçirilir. Hazırda cinayət işi üzrə bütün xüsusatlar tam və hərtərəfli araşdırılmaqla toplanmış mötəbər sübutlara əsasən təqsiri müəyyən olunacaq bütün şəxslərin əməllərinə hüquqi qiymət verilməsi təmin olunacaq.

# Trampın bir həftədə İlham Əliyevə 2 isti təbrik məktubu - Ermənistan xadimlərinin ABŞ-a uğursuz səfərinin ardınca...

**Xəbər verildiyi kimi, ABŞ Prezidenti Donald Tramp XXVI Beynəlxalq "Xəzər Neft və Qaz" sərgisinin keçirilməsi ilə əlaqədar Azərbaycan Prezidenti İlham Əliyevə məktub yazıb. Məktubda ABŞ Prezidenti bir sıra məqamlara toxunub. Qeyd olunub ki, Azərbaycan özünün tarixində bugünkü qədər firavan və qlobal iqtisadiyyata bağlı olmayıb:**



*"İki dövlət arasında fundamental məsələlərdə ortaq yanaşma mövcuddur"*

## **Elman Nəsirov:** *"Bu onu göstərir ki, Azərbaycan-ABŞ münasibətləri bütün istiqamətlər üzrə dinamik inkişaf tempinə malikdir"*

"Cənub Qaz Dəhlizi" daxil olmaqla, Azərbaycanda hasil olunan neft və qaz dünya enerji bazarlarında sabitliyi artırmaqda davam edir.

Türkmənistan və Şərqi Aralıq dənizi hövzəsi ölkələri kimi digər potensial təchizatçılarla tərəfdaşlıq quraraq Azərbaycan daha böyük liderlik rolu oynaya bilər. Ölkənizin uğurlarını genişləndirməyin əsl vaxtıdır.

Amerika Birləşmiş Ştatları xarici sərmayələrin cəlb edilməsi və innovasiyaların təşviqinə xidmət edəcək iqtisadi islahatların davam etdirilməsində səylərinizi dəstəkləyir. Azərbaycanın iqtisadi uğuru bütün regiona sabitliyin gətirilməsinə yardım edəcək".

Qeyd edək ki, Tramp son bir həftə ərzində Azərbaycan Prezidentinə iki dəfə məktub göndərib. Bundan əvvəl ABŞ Prezidenti mayın 24-də Respublika Günü ilə əlaqədar ölkə başçısına təbrik məktubu ünvanlayıb. Görünən odur ki, bir həftədə iki məktub ünvanlaması ABŞ-ın Azərbaycana yüksək önəm verdiyini və ölkəmizin bölgədə liderlik rolunu aydın göstərir. Bu, Azərbaycana verilən böyük önəmin təzahürüdür.

Yeri gəlmişkən qeyd edək ki, bu günlərdə Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın ABŞ-a səfəri uğursuz oldu. Ermənistanın bütün səylərinə baxmayaraq, Con Bolton Qriqoryanı qəbul etməkdən imtina edib. Onu da qeyd edək ki, ötən il Bolton İrəvanda olarkən Qriqoryanla təkbətək görüşməkdən də imtina edib. Nəticədə Qriqoryan Boltonun ofis nümayəndələri və icma rəhbərləri ilə görüşməyə məcbur olub.

Bütün bu deyilənlərin fonunda, Trampın son bir həftə ərzində Azərbaycan Prezidentinə iki dəfə məktub göndərməsini ekspertlər necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən millət vəkli Elman Nəsirovun sözlərinə görə, Trampın Prezident İlham Əliyevə bir həftə ərzində 2 dəfə məktub göndərməsi onu göstərir ki, Azərbaycan-ABŞ münasibətləri bütün istiqamətlər üzrə dinamik inkişaf tempinə malikdir:** "Xüsusilə də Respublika Günü ilə bağlı göndərdiyi təbrik məktubunda Tramp Azərbaycan-ABŞ münasibətlərinə toxunarkən qeyd edib ki, bizim münasibətlərimiz ortaq maraqlara əsaslanan güclü tərəfdaşlıq münasibətləridir. Heç şübhəsiz ki, cənab Trampın məktubda işlətdiyi hər bir söz və ifadə konkret məna kəsb edir. İki ölkə arasında ortaq maraqlar nə ola bilər? Bu, ilk növbədə, siyasi dialoqda və iqtisadi əlaqələrin inkişafında ola bilər. Xüsusən də enerji təhlükəsizliyi və terrorizmə qarşı mübarizə məsələlərində biz ortaq mövqedən çıxış edirik. Digər tərəfdən, münasibətlərimiz xarakterizə edilərkən tərəfdaşlıq kimi yox, güclü tərəfdaşlıq münasibətləri kimi qiymətləndirilir. Bu onu göstərir ki, iki dövlət arasında fundamental məsələlərdə ortaq yanaşma mövcuddur. Bu da Azərbaycana xüsusi diqqətin ifadəsidir. Bununla yanaşı, Tramp Azərbaycan Prezidentinin "Cənub Qaz Dəhlizi"nin reallaşması ilə bağlı atdığı addımları yüksək liderlik kimi qiymətləndirir. Prezident İlham Əliyevin yüksək liderlik qabiliyyətini önə çəkir. Bu da diqqətdən yayınmayan çox vacib məqamlardan biridir. Həmçinin, aparılan islahatlar, xüsusən də qanunun aliliyinin qorunub saxlanması istiqamətində atılan addımlar yüksək qiymətləndirilir".

E.Nəsirovun fikrincə, Trampın ikinci məktubunda ən mühüm tezislərdən biri ondan ibarətdir ki, Azərbaycanın özünün tarixində indiki qədər firavan və qlobal iqtisadiyyata bağlı olmadığı qeyd edilir: "Bu onu göstərir ki, həqiqətən də Birləşmiş Ştatlar Azərbaycandakı proseslərə çox böyük önəm verir. Bu həm də onu göstərir ki, ölkə başçısının həyata keçirdiyi iqtisadi islahatlar və sosial paket çox müsbət dəyərləndirilir. Atılan bu addımlar, nəticə etibarilə, ABŞ-la Azərbaycan arasında əməkdaşlığın daha da dərinləşməsinə xidmət edir. Beləliklə, ABŞ Prezidentinin Azərbaycan Prezidentinə ünvanladığı hər iki məktub bir daha təsdiqləyir ki, tərəflər arasında siyasi dialoq, iqtisadi əlaqələr dinamik inkişaf tempinə malikdir. Ancaq Azərbaycandan fərqli olaraq, Ermənistan ABŞ üçün önəm kəsb etmir. Bu, həmin ölkəyə göstərilən münasibətdə də özünü açıq şəkildə büruzə verir".

***Vidadi ORDAHALLI***

# Məmmədyarov Mnatsakanyana "detallar vermişik" dedi, Rusiya Kazan prinsipləri ilə danışıqları təsdiqlədi - Ermənistan yeni pozuculuğa başlayıb...

**Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar Kazan psinsipləri əsasında aparılır. Məlum olduğu kimi, bunu Rusiya Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergey Markov deyib.**



*"Ermənistan vaxtaşırı danışıqlarla bağlı qeyri-konstruktivliyini ortaya qoyur"*

## **Aydın Mirzəzadə:** *"Hansı prinsiplərin olmağından asılı olmayaraq, Azərbaycanın ərazi bütövlüyü məsələsi prinsipial məsələ kimi ortada var"*

Onun sözlərinə görə, Ermənistan yalnız Dağlıq Qarabağı deyil, onun ətrafındakı 7 rayonu da nəzarətə götürüb: "Bu rayonlarda etnik təmizləmə həyata keçirilib, əhali oradan köçürülüb. Münaqişənin həlli üçün ATƏT-in Minsk Qrupu yaradılıb, danışıqların aparılması üçün müəyyən addımlar atılıb, Rusiyanın təşəbbüsü ilə Kazan prinsipləri qəbul edilib. Özündə kompromis prinsipləri nəzərdə tutan Kazan prinsipinə görə, Ermənistan Azərbaycana işğal olunmuş 7 ətraf rayonunu geri qaytarır. Azərbaycan Ermənistan və Dağlıq Qarabağ ətrafından iqtisadi blokadanı aradan qaldırır, daha sonra Azərbaycan Dağlıq Qarabağa müvəqqəti status verir, oradan hərbçilər çıxarılır. Hazırda Kazan psinsipləri ətrafında danışıqlar aparılır".

Faktiki olaraq, Markov bununla təsdiq etdi ki, danışıqlar Kazan prinsipləri əsasında aparılır.

Ancaq Ermənistan tərəfi pozuculuq əməllərini davam etdirir. Çünki Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarovun "Ermənistanın yeni rəhbərliyinə məsələnin öyrənilməsi üçün vaxt verilmişdi və hazırda o vaxt bitib" fikirlərinə münasibət bildirən Ermənistan xarici işlər naziri Zöhrab Mnatsakanyan qeyd edib ki, bu cür ritorika "danışıq ritorikası" deyil və danışıq aparan tərəfə yaraşmır.

Qeyd edək ki, mayın 27-i nazir E.Məmmədyarov yazılı formada Rusiyanın "Kommersant" nəşrinə müsahibəsində bildirib ki, Azərbaycanda Ermənistanın yeni rəhbərliyinin sağlam düşüncəli olacağına dair müəyyən ümidlər bəslənir: "Öz tərəfimizdən Ermənistanın yeni rəhbərliyinin danışıqlar prosesinin detalları ilə tanış olması üçün müəyyən müvəqqəti fasilə verdik. Bu keçid dövrü artıq bitib, danışıqlar həm ölkə rəhbərləri, həm də xarici işlər nazirləri səviyyəsində bərpa olunub. Belə ki, bu il ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə mən artıq öz erməni həmkarımla iki dəfə - yanvarda Parisdə, apreldə isə Moskvada görüşdüm. Son görüş üçtərəfli formatda - Rusiya xarici işlər naziri Sergey Lavrovun iştirakı ilə baş tutdu. Dialoq mövcud gündəlik üzrə mövcud formatda aparılır ki, bu da müəyyən optimizm yaradır".

Bütün bunlar onu göstərir ki, danışıqlar Kazan prinsiplərinə əsasən aparılır. Ermənistana danışıqların məğzi ilə tanış olmaqla bağlı verilən vaxt bitib. Ermənistan isə prosesləri uzatmaq istəyir. Hər halda, görünən odur ki, Rusiya danışıqların Kazan prinsipləri əsasında aparıldığını təsdiqlədi. Bütün bunları ekspertlər necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən millət vəkili Aydın Mirzəzadənin sözlərinə görə, Ermənistan vaxtaşırı olaraq danışıqları pozmaq yolunu tutur:** "Hansı prinsiplərin olmağından asılı olmayaraq, Azərbaycanın ərazi bütövlüyü məsələsi prinsipial məsələ kimi ortada var. Yəni Azərbaycan heç bir halda ərazi bütövlüyü məsələsini güzəştə getməyəcək. Danışıqların Kazan, yoxsa digər prinsiplər üzrə getməsi Azərbaycan üçün əhəmiyyətli deyil. Azərbaycan üçün əsas məsələ Ermənistanın öz qonşunlarını işğal olunmuş torpaqlardan çıxarmasıdır. Ermənistan vaxtaşırı danışıqlarla bağlı qeyri-konstruktivliyini ortaya qoyur. Görürsən ki, əvvəlki danışıqlarda kiçik də olsa əldə olunan nəticələrdən imtina edirlər. Yaxud da görürsən ki, danışıqları yenidən başlamağa çalışırlar. Ermənistan əsasən belə pozucu fəaliyyətlə məşğul olub. Ancaq ortada olan reallıq ondan ibarətdir ki, Azərbaycan istənilən halda problemin mütləq həll edilməsini tələb edir. Vaxt keçdikcə, proseslər Ermənistanın əleyhinə işləyir. Bütün bunların nəticəsidir ki, Serj Sarkisyan hakimiyyətdən getdi, ötən bir il ərzində Paşinyanın reytingi 20 faiz aşağı düşüb. Bir sözlə, Ermənistanın bir dövlət kimi mövcudluğu bu gün onun Dağlıq Qarabağ məsələsinə münasibətindən asılıdır".

***Vidadi ORDAHALLI***

# Beynəlxalq Münasibətlərin Araşdırılması Mərkəzi "Ermənistanın regional təhdidi" mövzusunda Forum keçirdi

**Azərbaycan Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının dəstəyi ilə Beynəlxalq Münasibətlərin Araşdırılması Mərkəzi (BMAM) "Ermənistanın regional təhdidi" mövzusunda Beynəlxalq Forum keçirib. Beynəlxalq Forumda dövlət rəsmiləri, millət vəkilləri, Azərbaycanda fəaliyyət göstərən beynəlxalq təşkilatların təmsilçiləri, xarici ölkə səfirliklərinin nümyəndələri və səfirlər, media və QHT rəhbərləri, ziyalılar, tələbələr iştirak edib.**



Forumu giriş sözü ilə Azərbaycan Respublikası Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, siyasi elmlər üzrə fəlsəfə doktoru, BMAM sədri Rufiz Qonaqov açaraq, Azərbaycanın ərazi bütövlüyünün pozulması və bir milyondan artıq məcbur köçkün həyatı yaşayan Azərbaycan vətəndaşının hüquqlarının təmin edilməsi istiqamətində dünya birliyini ciddi qərarlar qəbul etməyə, ikili standartlara son qoymağa, ədalətli mövqe sərgiləməyə çağırıb. Ermənistanın bu gün də davam etməkdə olan işğalçılıq siyasətinin Cənubi Qafqaz Regionuna ciddi təhlükə olduğunu bildirib. BMAM sədri Prezident İlham Əliyevin səsləndirdiyi: "Münaqişənin digər həlli yolları yoxdur. Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil, heç vaxt olmayıb və heç vaxt olmayacaqdır. Azərbaycan xalqı və dövləti heç vaxt imkan verməz ki, Azərbaycan torpağında ikinci erməni dövləti yaradılsın" fikirlərini bir daha forum iştirkçılarının diqqətinə çatdırıb. Şura üzvü qeyd edib ki, bütün səylərə baxmayaraq, Ermənistanın işğala son qoymaması regional və qlobal təhlükəsizlik sistemi üçün də ciddi təhdiddir və bu siyasət regionda acı nəticələrə gətirib çıxarır. Ermənistanda baş verən son hakimiyyət dəyişikliyindən sonra prosesin normallaşmasına ümid yaransada, təkrarlanan qeyri-konstruktiv mövqe indiki rejimin də mahiyyətinin özündən əvvəlkinə bənzədiyi göz önündədir.

Foruma moderatorluq edən BMAM-nin eksperti Rəfail Becanov hər il keçirilən bu tədbirin əhəmiyyətindən danışıb.

Milli Məclisin Komitə sədri, AŞPA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov "Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsi yeni mərhələdə" mövzusunda məruzə edib. Məruzəçi bildirib ki, danışıqlar prosesi davam etdirilir, lakin Ermənistan tərəfinin ənənəvi separatizm siyasəti bu danışıqların effektivliyinə mane olur. Ermənistanda hakimiyyət dəyişikliyi də bu prosesə hələ ki, öz töhfəsini verməyib. Azərbaycan sülh yolu ilə torpaqlarımızın azad olunmasının tərəfdarıdır və bunu dəfələrlə bildirmişik. Biz bunu bütün səviyyələrdə, bəyan etmişik və Ermənistanı bir daha danışıqlar yolu ilə problemi həll etməyə çağırırıq.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı Qüdrət Həsənquliyev "Erməni terrorunun doğurduğu real təhdidlər və tarixi həqiqətlər" mövzusunda məruzə ilə çıxış edib. Məruzəçi bildirib ki, bu proses illərdir davam edir. Ermənistanın təhdid və təzyiqləri region üçün olduqca təhlükəli nəticələrə gətirib çıxarmışdır. Ermənistandakı hakimiyyət dəyişikliyi prosesi müsbət istiqamətdə aparmır, əksinə daha təhlükəli nəticələrə yol açır. Ermənistan tərəfi anlamalıdır ki, bu münaqişə nəticəsində özlərini pis duruma salıblar və Ermənistanda faktiki olaraq, iqtisadi və siyasi böhrandır. Siyasi böhran, iqtisadi böhran, demoqrafik böhran Ermənistanı süquta aparır.

Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin həmsədri, millət vəkili Cavanşir Feyziyev məruzəsində Ermənistanın Cənubi Qafqazda xalqların təhlükəsizliyinə qarşı davam etməkdə olan təhdid siyasətinin aradan qaldırılması istiqamətində region dövlətlərinin bir araya gəlməsinin vacibliyini vurğulayıb Beynəlxalq ictimaiyyətin ədalətsiz qərarlarına, bəzi beynəlxalq təşkilatların tətbiq etdiyi ikili standartlara etirazını bildirib. Millət vəkili qeyd edib ki, nə qədər ki, Ermənistan işğal etdiyi Azərbaycan ərazilərindən geri çəkilməyib, Cənubi Qafqazda xalqların dinc və yanaşı yaşaması məsələsi sual altında qalır. Həmçinin dünya birliyinin işğalçı tərəfin bu hərəkətlərinə etinasız münasibəti müasir beynəlxalq münasibətlər sistemi üçün arzuolunmaz ənənələrin təməlini qoyur

Xarici İşlər Nazirliyinin Mətbuat İdarəsinin rəisi Leyla Abdullayeva "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin hazırki danışıqlar prosesindəki vəziyyəti " mövzusunda məruzə ilə çıxış edib. XİN idarə rəisi həmçinin münaqişənin həlli istiqamətində ölkə başçıları və xarici işlər nazirləri arasında son dövrlərdə keçirilən görüşlərin nəticələrini də şərh edib, Ermənistanın qeyri-konstruktiv mövqeyini Forum iştirakçılarının diqqətinə çatdırıb. O bildirib ki, 30 ilə yaxındır ki, ərazilərimiz işğal olunub. Ermənistan BMT Təhlükəsizlik Şurasının bu münaqişə ilə bağlı qəbul etdiyi 4 qətnaməni yerinə yetirməkdən imtina edir. Müxtəlif beynəlxalq qurum və təşkilatlar tərəfindən, o cümlədən dünya dövlətləri tərəfindən Azərbaycanın ərazi bütövlüyünün qeyd-şərtsiz bəyan edilməsinə baxmayaraq, Ermənistan geri çəkilmir və faktiki olaraq 20 faizdən çox ərazimiz işğal altında, 1 milyondan çox soydaşımız məcburi köçkün həyatı yaşayır.

Yekun məruzə ilə cıxış edən millət vəkili, professor Elman Nəsirov bu kimi beynəlxalq forumların keçirilməsinin ölkəmizin və regiounun təhlükəsizliyi istiqamətində əhəmiyyətindən danışdı. O, Ermənistanın separatizm siyasətinin qarşısının alınması istiqamətində BMT qətnamələrinə diqqəti yönəltdi və bildirdi ki, Ermənistanın işğalçılıq siyasəti BMT-nin 4 qətnaməsində də öz əksini tapmışdır. Ermənistan beynəlxalq hüquqa əməl etməklə işğal etdiyi Azərbaycan torpaqlarından geri çəkilməli, öz etnik separatizm əməllərindən imtina etməlidir. Ermənistanın faktiki işğal siyasəti bütün dünya tərəfindən pislənməli, ikili standartlara son qoyulmalıdır.

Məruzə ətrafında millət vəkili, siyasi elmlər doktoru professor Hikmət Məmmədov, digər millət vəkilləri Pərvin Kərimzadə, Fazil Mustafa, Jalə Əliyeva, Çingiz Qənizadə, Azər Badamov, Tahir Mirkişili, Tahir Kərimli, Milli Məclisin şöbə müdir müavini Ülviyyə Abdullayeva və Milli Məclisin İnsan Hüquqları eksperti Əhliman Tağıyev, Azərbaycan-Ukrayna Beynəlxalq Alyansının sədri Elmar Məmmədov, politoq, "Teleqraf media qrupunun rəhbəri Aynur Camalqızı,fəlsəfə elmləri üzrə fəlsəfə doktoru Hüseyn İbrahimov və başqaları çıxış edərək bildiriblər ki, Ermənistanın Cənubi Qafqaz xalqları üçün davam etdirdiyi aqressiv, antihumanist siyasətinin qarşısının alınmasında beynəlxalq təşkilatlar, diaspor qurumları, vətəndaş cəmiyyətləri fəal olmalı, Ermənistanın təhdid siyasətinin qarşısının alınmasında yaxından iştirak etməlidirlər. Bunun üçün kifayətdir ki, Cənubi Qafqazın bütün media vasitələri-sosial şəbəkələr, bütünlükdə isə hər bir vətəndaş separat təhdidlərlə mübarizədə özünü dördüncü hakimiyyət- KİV nümayəndəsi hesab etsin. Millət vəkilləri və politoloqlar cıxışlarında Ermənistanın danışıqlarda sərgilədiyi qeyri-konstruktiv mövqeyinin özlərinin əleyhinə işlədiyini, siyasi və iqtisadi tənəzzülə gətirib cıxardığını konkret faktlarla konfrans iştirakçılarının diqqətinə çatdırıblar.

Sonra məruzələr ətrafında çıxışlar davam etdirilib. Tədbirin sonunda Beynəlxalq Forumun iştirakçıları adından Ermənistanın regional təhdid siyasətinə dair Bəyanat qəbul edilib.

Bəyanatda qeyd olunur ki, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində ədalətli həllinə nail olmaq, Cənubi Qafqazda davamlı sülhün bərqərar olması Azərbaycanın xarici siyasətində prioritet təşkil edir:

"Münaqişənin tezliklə ədalətli həlli, bölgədə əminamanlığa nail olunması təkcə Azərbaycan üçün deyil, həm də bütöv regionun sosial-iqtisadi inkişafına, dünyada təhlükəsizliyin möhkəmlənməsinə öz töhfəsini verə bilər.

Məlumdur ki, Ermənistanın tarix boyu apardığı təhdid siyasəti nəticəsində bir milyondan artıq Azərbaycan ailəsi, eləcə də ölkəmizdə yaşayan digər xalqların nümayəndələri öz tarixi yaşayış yerlərini tərk edərək qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Çox təəssüf ki, Ermənistanın qeyri-konstruktiv mövqeyi, danışıqlar prosesini uzatmağa yönəlik cəhdlər münaqişənin həlli istiqamətində konkret nəticələrin əldə olunmasına maneələr yaradır. Dünyaya məlumdur ki, Ermənistanın terror siyasəti ən dəhşətli faciələrdən olan Xocalı soyqırımına səbəb olmaqla, dinc sakinlərə qarşı törədilmiş ən amansız soyqırım kimi tarixə düşüb.

Azərbaycan ərazilərini danışıqlar yolu ilə qaytarmaq istəməyən Ermənistanın etnik separatizm siyasəti bu gün də davam edərək, yalnız Azərbaycan üçün deyil, ümumiyyətlə Cənubi Qafqaz regionu üçün ciddi təhlükə olaraq qalır. Dünya ictimaiyyəti, BMT, AŞPA, Aİ, ATƏT-in Minsk qrupu kimi nüfuzlu beynəlxalq təşkilatların Ermənistana tətbiq etdiyi qətnamə və tələblərin bu günə qədər nəticəsiz qalması ikili standartların bariz nümunəsidir. Ermənistanın separatizm siyasəti həm də regionun dünya əhəmiyyətli bütün qlobal layihələri üçün təhlükə mənbəyidir. Aydın görünür ki, Ermənistanda son seçkilər zamanı siyasi hakimiyyətə gələn qruplar Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həllinə mane olmaq, Cənubi Qafqazda sabitliyi pozmaq, regionda təxribata yönəlik siyasi xətt seçiblər.

Bu bəyanatı imzalayan forum iştirakçıları dünya ictimaiyyətini, BMT Təhlükəsizlik Şurasına üzv dövlətləri tarixən insanların və mədəniyyətlərin dialoq məkanı olan Cənubi Qafqazın Ermənistanın regional təhdid siyasəti ilə hədəfə çevrilməsinin qarşısını almaqda əhəmiyyətli qərarlar qəbul etməyə, Dağlıq Qarabağ münaqişəsinin Beynəlxalq Hüquq normaları çərçivəsində həllinə nail olmağa çağırır".

# Avroliqanın final oyunundan qabaq Azərbaycanı qaralayanların yalana görə üzr istəməsi gündəmdə - başda Britaniya XİN olmaqla...

## *Vüqar Rəhimzadə: "Oyunlara qara prizmadan yanaşanlar yanıldıqlarını etiraf etməli və buna görə üzr istəməlidirlər"*

**Məlum olduğu kimi, mayın 29-da Bakı Olimpiya Stadionunda UEFA Avropa Liqasının final qarşılaşması keçirilib. Azərbaycanın paytaxtında çoxdandır maraqla gözlənilən futbol yarışı uğurla baş tutdu. "Çelsi" və "Arsenal" arasında keçirilən qarşılaşmanı 51 min 370 tamaşaçı canlı olaraq izləyib.**



*"Yanlış yolda olduqlarını açıq şəkildə ifadə etməlidirlər"*

Qeyd edək ki, 2019-cu ildə futbol üzrə UEFA Avropa Liqasının final oyununun Bakı Olimpiya Stadionunda keçirilməsi haqqında qərar 2017-ci il sentyabrın 20-də Avropa Futbol Assosiasiyaları Birliyi İcraiyyə Komitəsi tərəfindən qəbul edilib. Bu qərar ölkəmizdə idman və bədən tərbiyəsi sahəsində əldə edilən nailiyyətlərə beynəlxalq və Avropa futbol qurumlarının verdiyi yüksək qiymətin göstəricisidir.

Düzdür, bu, Bakıda keçirilən ilk belə möhtəşəm yarış deyil. Artıq Azərbaycanın yeritdiyi uğurlu idman siyasətinin nəticəsidir ki, idmançılarımız beynəlxalq turnir və yarışlarda uğur qazanmaqla yanaşı, ölkəmiz möhtəşəm idman yarışlarına da evsahibliyi edir. I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, UEFA U-17 Avropa Çempionatı - 2016 və digər bu kimi oyunlar son illərdə Bakının uğurla evsahibliyi etdiyi və azarkeşlərin hələ də xoş təəssüratlarla xatırladığı yarışlardır.

O da məlumdur ki, Bakıda keçirilən Avroliqa ilə bağlı xaricdəki bəzi mətbuat orqanları, müəyyən təşkilatlar Azərbaycanın ünvanına olmazın böhtanlar səsləndirdilər. Hər vasitə ilə final oyununa kölgə salmağa, xaricdən gələn azarkeşləri yarışa gəlməkdən daşındırmağa çalışdılar. Guya oların təhlükəsizliyi ilə bağlı risqlər olacaq və s. Ancaq, göründüyü kimi, bunların heç biri özünü doğrultmadı. Oyun bütün tələblərə uyğun olaraq yüksək səviyyədə keçirildi. Oyun barədə səslənən qərəzli xarakterli proqnozların heç biri reallaşmadı. Bakıda keçirilən final sübut etdi ki, oyunla bağlı Azərbaycanla bağlı qarayaxmaların, bəzi xəbərdarlıqların əsası yox imiş. O baxımdan başda Böyük Britaniya Xarici İşlər Nazirliyi olmaqla, Azərbaycanı qaralayanlar buna görə üzr istəməlidirlər.

Maraqlıdır, ekspertlər buna necə yanaşırlar?

**Məsələyə münasibət bildirən "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadənin sözlərinə görə, oyunlardan qabaq ölkəmizi qaralayanlar bütün bunlara görə mənəvi baxımdan Azərbaycandan üzr istəməyə borcludurlar:** "Çünki onların səsləndirdiyi qarayaxmaların heç biri özünü doğrultmadı. Bədxah qüvvələr onsuz da öz bəd əməllərini görürlər. Reallıq ondan ibarətdir ki, Azərbaycan çox sanballı bir oyuna evsahibliyi etdi. Ən böyük qazanan tərəf Azərbaycan oldu. Nə mənada? O mənada ki, oyunu canlı izləmək üçün minlərlə turist ölkəyə gəldi. Onlar gəlib gördülər ki, Azərbaycan necə sürətlə inkişaf edir. Hesab edirəm bu bizim üçün çox böyük uğurdur. Başqa bir tərəfdən, sözügedən final oyunu dünyada çoxsaylı telekanal tərəfindən yayımlandı. Təxminən 200-ə yaxın ölkədə bunun yayımlanması Azərbaycan haqqında təsəvvürün yaranmasında kifayət qədər mühüm rol oynadı. Final oyunundan əvvəl səslənən əsassız tənqidlərin, qarayaxmaların heç biri özünü doğrultmadı. Xüsusən də Böyük Britaniya XİN-in oyundan əvvəl verdiyi açıqlama təəssüf və təəccüb doğuran hadisə idi. Bu bir daha onların nə qədər yanlış rəy verdiklərini sübut etdi. Keçirilən yüksək səviyyəli oyun onların bütün fikirlərini puç etdi. Bir sözlə, oyunlara qara prizmadan yanaşanlar yanıldıqlarını etiraf etməli və buna görə üzr istəməlidirlər. Yanlış yolda olduqlarını açıq şəkildə ifadə etməlidirlər".

***Vidadi ORDAHALLI***

# "Arsenal" siyasi erməni oyunlarına uymasaydı... Klubun rüsvayçı məğlubiyyətini bununla bağlayırlar...

## *Kənan Məstəliyev: "Canlı şahidi oldum ki, hətta "Arsenal"a simpatiyası olan şəxslər belə məhz erməni hoqqabazlığına görə kluba qarşı çıxırdılar"*

**Bütün təzyiqlərə, qarayaxma kampaniyalarına baxmayaraq, Bakı möhtəşəm futbol finalına uğurla evsahibliyi edə bildi. Keçirilən oyunda "Çelsi" klubu "Arsenal" üzərində möhtəşəm qələbə qazanmağı bacardı. Bakı Olimpiya Stadionunda keçirilən oyunda "Arsenal" 4-1 hesabı ilə məğlub oldu.**



*"Çelsi" sanki öz doğma stadionunda oynayırmış kimi özünü hiss etdi"*

Məlumdur ki, bu cür oyunlarda tamaşaçı dəstəyi də vacibdir. Oyunun keçirildiyi stadionda hər klubun öz azarkeşləri ilə yanaşı, yerli publika da az deyildi. Ancaq biz şahidi olduq ki, stadionda çoxluq təşkil edən yerli azarkeşlər, birmənalı olaraq, "Çelsi"yə dəstək verirdilər. Hətta "Arsenal"ın ənənəvi azarkeşi olan azərbaycanlılar belə bu oyunda "Çelsi"yə dəstək ifadə edirdilər. Səbəb bəllidir. Klubun oyundan əvvəl erməni oyununa getməsi belə bir ab-havanı yaratmış oldu. Sözün həqiqi mənasında, "Arsenal" klubu siyasi addımlar ataraq özünü Mxitaryan kimi avantüristin siyasi ambisiyalarına qurban verdi. Mxitaryanın futboldan əlavə, separatçılıqla məşğul olması, işğal altındakı rejimə maddi və mənəvi dəstək verməsi danılmaz faktdır. "Arsenal"ın erməni siyasi oyununa qurban getdiyini sübut edən ən bariz nümunəni isə oyun ərəfəsində Paşinyan ortaya qoyub. Erməni Baş nazir "Arsenal"ın erməni oyunçusu Mxitaryana zəng vuraraq ona dəstəyini ifadə edib. Danışığın məzmunu ilə bağlı Paşinyan öz "Facebook" səhifəsində qeydlər edib. Bildirib ki, Mxitaryanla fəxr etdiklərini onun nəzərinə çatdırıb.

Ancaq onu da nəzərə almaq lazımdır ki, futbolda siyasi şoular yox, yekun nəticə öz sözünü deyir. Bu da "Arsenal"ın ziyanınadır. Belə final oyunlarında nadir hallarda olan böyük məğlubiyyət var ortada. "Arsenal"ın bu məğlubiyyətində erməni siyasi oyunlarının nə dərəcədə rolu olub?

**Tanınmış futbol mütəxəssisi Kənan Məstəliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Avroliqanın finalı yüksək təşkilatçılıqla yadda qaldı:** "İstər azarkeşlər, istərsə də media nümayəndələri üçün biz gözəl şəraitin yaradıldığının şahidi olduq. Hətta oyundan sonra da heç bir problem yaşanmadı. Hər kəs öz işini rahatlıqla görə bildi. Mən şəxsən şahidiyəm ki, səhərə kimi metro işlədi. Stadiondan metroya qədər olan məsafəni avtobuslar azarkeşləri pulsuz daşıdılar. "Arsenal"ın böyük hesabla darmadağın edilməsilə bağlı isə bunları deyə bilərəm, klubun məğlubiyyəti gözlənilsə də, heç kim belə hesabın olacağını düşünmürdü. Hesabdan əlavə, "Arsenal" çox biabırçı oyun nümayiş etdirdi. Komandanı tanımaq olmurdu. Futbol təbii ki, meydanda oynanır. Amma nəticəyə təsir edən psixoloji məqamlar da az deyil. Xüsusilə də final oyunlarında bu, vacib rola malikdir. Bilirsiniz, final qarşılaşmalarında adətən gücləri bir-birinə yaxın olan klublar üz-üzə gəlirlər. Buradakı istənilən incə bir məqam hər bir komandanın xeyrinə və ya ziyanına işləyə bilər. Bu baxımdan da "Arsenal"ın ermənilərin toruna düşərək etdiyi cığallığın onun özünə böyük zərəri oldu. Ən başlıca psixoloji faktor kimi isə yerli azarkeşlərin mövqeyini qeyd edə bilərəm. Mən stadionda canlı şahidi oldum ki, hətta "Arsenal"a simpatiyası olan şəxslər belə məhz erməni hoqqabazlığına görə kluba qarşı çıxırdılar. "Çelsi" sanki öz doğma stadionunda oynayırmış kimi özünü hiss etdi. Hesab edirəm ki, "Arsenal" haqq etdiyi cəzanı aldı. Onun heyətində olan futbolçular nə qədər peşəkar olsalar da, psixoloji gərginlikdə oynamalı oldular. Final oyununda birinci hissədə xırda bir-iki epizodu çıxmaq şərtilə "Arsenal" heç nəyi ilə yadda qalmadı. "Çelsi" isə öz adına uyğun olaraq, əsl zadəganlıq nümayiş etdirib getdi. Yalnız futbolla bağlı hərəkətlər etdilər, açıqlamaları da bu yöndə oldu. Yəqin ki, "Arsenal" bundan yaxşı dərs çıxaracaq və yeganə çıxış yolunu Mxitaryanla vidalaşmaqda görəcək".

***Məhəmmədəli QƏRİBLİ***

# Ermənistan ABŞ-ın anti-İran bank sanksiyalarına rəsmən qoşuldu...

**İranla yaxın strateji tərəfdaş olduğunu xüsusi bəlağətlə vurğulayan Ermənistan indi də rəsmi Tehrana üz çevirərək, açıq şəkildə ABŞ-ın həmin ölkəyə qarşı tətbiq etdiyi sanksiyalara dəstək ifadə edib. Bu barədə məlumatı erməni KİV-i yayıb.**



*”Onlar Irana qarşı ABŞ-ın tələblərini, ideyalarını yayırlar”*

***Mübariz Əhmədoğlu:** ”Bu, faktiki olaraq, ABŞ-ın bölgədə casusu rolunda çıxış etmək anlamına gəlir”*

Bildirilir ki, Ermənistandakı bəzi banklar öz müştərilərinə İranla bağlı olan yükdaşımalara pul keçirməyi dayandırmağı tövsiyə ediblər. Banklar bunu onunla izah ediblər ki, həmin əməliyyatlar hər an dondurulma təhlükəsi altındadır. Erməni ekspertlər bildirirlər ki, onlar vaxtilə belə təhlükənin real olduğu ilə bağlı proqnozlar versələr də, hakimiyyət bundan yayınırdı. Ermənistandakı iqtisadçılar bu fikirdədirlər ki, Ermənistanın bank sistemi ABŞ-la sıx bağlıdır. Buna görə də hər an təhlükənin ola biləcəyi realdır. Bununla yanaşı, hesab edilir ki, İranla əlaqələri tam kəsmək də blokadada olan ölkənin durumuna mənfi təsir göstərə bilər. Belə bir təklif də səslənir ki, çıxış yolu kimi Ermənistanla İran arasında azad-iqtisadi zona olan Mehridə İran-Ermənistan adlı müştərək bank açılsın və iki ölkənin ticari əməliyyatları həmin bank vasitəsilə həyata keçirilsin. Müstəqil ekspertlər isə açıq şəkildə bəyan edirlər ki, İrəvan artıq anti-İran bank sanksiyalarına qoşulmuş olub. Belə vəziyyət iki ölkənin gələcək münasibətləri üçün nə vəd edir?

**Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri Mübariz Əhmədoğlu "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, əslində, Ermənistanın İrana qarşı etdiyi pisliyi hansısa başqa dövlət etməyib:** "Onların bank sektoru uzun müddətdir ABŞ-ın diqtəsi ilə işləyir. Sadəcə, indiki məqamda tam olaraq bunun möhürünü vurmuş oldular. Əhmədinecatın dövründə Mehridə su elektrik stansiyası tikildi. Təxminən 300 milyonluq layihə idi. İran həmin pulu Ermənistana verdi, amma Ermənistan bankları həmin pulu qəbul etməkdən imtina etdilər. Onda da sanksiya məsələsi gündəmə gətirildi. Sadəcə, Ermənistanın daxilində olan bir qrup hakimiyyət nümayəndəsi bunlara baxmayaraq, İranla münasibətləri qoruyub saxlamaqda maraqlıdır. Bəli, artıq banklar yalnız özləri ilə bağlı məsələyə münasibət bildirməyiblər. Eyni zamanda əhaliyə çağırış ediblər ki, İran üzərindən heç bir əməliyyat aparmasınlar. Bu, faktiki olaraq, ABŞ-ın bölgədə casusu rolunda çıxış etmək anlamına gəlir. Onlar İrana qarşı ABŞ-ın tələblərini, ideyalarını yayırlar. Ermənistan İrana qarşı etdiklərinin 50 faizini Rusiyaya qarşı etsəydi, onu darmadağın edərdilər. Amma görürsünüz ki, İran onlarla çox mülayim davranır.

ABŞ-Ermənistan münasibətləri hazırda ən minimum həddədir. Çünki Paşinyanı Amerika hakimiyyətə gətirsə də, o, Rusiyanın maraqlarına işləyir. Amma N.Paşinyan, görünür, ABŞ-ın maraqlarına gizli işləməyə etibarlı təminatlar verdiyi üçün, artıq ABŞ N.Paşinyana inanır və ona görə də maliyyə vəsaiti ayırmağa başladı.

ABŞ üçün Ermənistanın yerləşdiyi coğrafiyada ən aktual mövzu İran məsələsidir. C.Bolton gəldi, müəyyən söhbətləri apardı. Ermənistan tərəfi təkzib etsə də, sonradan bəlli olur ki, ABŞ-ın əlində Ermənistanın anti-İran olmasına əsaslar var və ona görə ABŞ bundan istifadə edir.

N.Paşinyanın İrandan qayıdan kimi İsrailə 2 nümayəndə heyəti göndərməsi göstərir ki, Ermənistan özü İranın daxilində ABŞ-ın maraqlarına cavab verən iş aparmaqda həvəslə maraqlıdır. İsrail ABŞ-dan aldığı məlumatlar əsasında Ermənistanı İrana qarşı layihələrə cəlb edəcəyinə çox inanır. Yeri gəlmişkən, Aİ-nin son tədbirində də Ermənistana verilən dəstəyin arxasında ola bilər ABŞ-dan gələn siqnal dayansın. ABŞ Aİ-yə Ermənistanın anti-İran layihələrdə iştirak etməsi ilə təsir edə bilər.

ABŞ-ın Ermənistanda qurduğu casus şəbəkə və Ermənistan vasitəsilə ABŞ-la əlaqə qurmaq yolunda olmuş rəsmilərin fəaliyyəti İran üçün ciddi nəticələr yarada bilər".

***Məhəmmədəli QƏRİBLİ***

# "Demokratiya aşiqləri" Almaniya deputatları yenidən qondarma "DQR"də "bal şirəsi" axtarır...

**Ermənilər işğal altında saxladıqları Azərbaycan ərazilərinə müxtəlif xarici ölkələrin nümayəndələrinin, siyasi dairələrdə təmsil olunan şəxslərinin qanunsuz səfərlərini təşkil etməkdə davam edirlər. Qondarma "Dağlıq Qarabağ Respublikası"na səfərə gələnlər sırasında Almaniya nümayəndələri də var.**



*”Onlar bununla rəy yaratmaq istəyirlər ki, dünyanın inkişaf etmiş ölkələrindən olan Almaniyadan da deputatlar...”*

***Niyaməddin Orduxanlı:** ”Qondarma rejimlə ”Almaniya üçün alternativ” adlı qrupun hansısa sahədə əməkdaşlığının baş verəcəyi inandırıcı görünmür, bu mümkün olmayan bir məsələdir”*

Erməni mətbuatının yazdığına görə, qondarma "respublika"nın "Xalq yığıncağı" təşkilatının sədr müavini Vaqram Valayan Almaniyadan olan "Almaniya üçün alternativ" adlı qrupun nümayəndələrini qəbul etdiyinə dair məlumat yayıb. Bu şəxslərin Almaniyanın federal və regional parlamentinin nümayəndələri olduğu bildirilir. Görüşdə Ermənistanın Baş naziri Paşinyanın "Mənim addımım" fraksiyasının üzvləri də iştirak ediblər.

Məlumata görə, 26 may tarixində Avropa Parlamentində keçirilən seçkilərlə bağlı Valayan gələn qonaqları təbrik edib və onların yerli parlamentdə möhkəmlənməsini alqışlayıb. Maraqlıdır ki, qondarma rejimin təmsilçisi ilə görüşdə Almaniya ilə qondarma rejim arasındakı əlaqələrin perspektivindən də danışılıb, bu əlaqələrin zəruriliyi barədə fikir bildirilib. Nümayəndə heyətində təmsil olunan Stefan Konen qeyd edib ki, bundan sonra da "Artsax"la (qondarma "respublika") Almaniya arasındakı əlaqələrin möhkəmlənməsi istiqamətində fəaliyyət göstərəcəklər.

Qəribədir ki, bu şəxslərin qanunsuz olaraq bizim torpaqlara səfər etdikləri azmış kimi, onlar Xankəndidə Qarabağ müharibəsində ölən erməni əsgərlərinin xatirəsinə qoyulan abidəni də ziyarət ediblər.

**Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədr müavini, politoloq Niyaməddin Orduxanlı "Bakı-Xəbər"ə bildirdi ki, Almaniyadan qondarma "respublika"ya səfər edən qrupun sərgilədiyi mövqe tamamilə əsassızdır.** N.Orduxanlının sözlərinə görə, bu şəxslər Almaniyadakı erməni lobbisinin təsiri altında olan adamlardır və bu səfərdə də həmin xətlə təmsil olunurlar. Hansısa bir qrupun səsləndirdiyi fikirlərin Almaniya dövlətinin mövqeyi olmadığına inandığını deyən N.Orduxanlının bildirdiyinə görə, Almaniya Azərbaycanın ərazi bütövlüyünü tanıyır. "Birincisi, bu səfər bütün diplomatik, demokratik qaydalara, prinsiplərə ziddir. Yəni Almaniya dövləti rəsmi olaraq Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Bu şəxslərin Dağlıq Qarabağa səfəri hər şeydən əvvəl öz dövlətlərinə hörmətsizlik kimi qəbul edilməlidir. Onu da qeyd edim ki, qondarma rejimin "müstəqilliyini" bu gün Ermənistanın özü belə tanımayıb. Dağlıq Qarabağ bütün dünyada Azərbaycan ərazisi olaraq tanınmaqda və qəbul edilməkdədir. Onların bu hərəkəti həmin şəxslərin özfəaliyyətidir, bu, siyasətçiyə yaraşmayan bir hərəkətdir. Bu şəxslərin səfərini, burada etdiyi çıxışları Almaniyanın mövqeyi kimi qəbul etmək olmaz. Bu şəxslər bu addımı atmaqla öz dövlətlərinin qanunlarını ayaq altına atırlar".

N.Orduxanlı hesab edir ki, bununla belə, Azərbaycan dövləti Almaniya vətəndaşlarının Dağlıq Qarabağa qanunsuz səfərinə öz narazılığını bildirməli və bu barədə Almaniya dövlətinə etiraz edilməlidir. Həmin şəxslərin Azərbaycan üçün arzuolunmaz şəxs kimi elan edilməsinin də vacib olduğunu deyən N.Orduxanlının sözlərinə görə, o insanların mövcud hərəkətinə siyasi mənada qiymət verilməlidir. "Düşünürəm ki, Azərbaycanın Xarici İşlər Nazirliyi bu istiqamətdə işlər aparır. İnanıram ki, bu addımlar susqunluqla qarşılana bilməz. Onlara qarşı qanunlara uyğun addımlar atılmalıdır və atılar da. Qondarma rejimlə "Almaniya üçün alternativ" adlı qrupun hansısa sahədə əməkdaşlığının baş verəcəyi inandırıcı görünmür, bu mümkün olmayan bir məsələdir. Tanınmayan qondarma rejimin hansısa bir müstəqil siyasi davranışının olması mümkünsüzdür. Almaniyanın bu qrupunun erməni lobbisinin təsiri altında olması şübhə doğurmur. Həmin siyasətçilər erməni lobbisinin təsirinə düşüblər. Bu insanlar bizim ölkənin ərazisinə qanunsuz səfər ediblər. Bu halda da dünyanın tanımadığı "DQR"ə səfər təşkil edilib və bu səfər üçün Azərbaycandan viza alınmayıb.

O insanlar dərhal öz layiqli cəzalarını almalıdırlar. İnanıram ki, o şəxslər bundan sonra Azərbaycana gəlmək şansını birdəfəlik itirəcəklər. Bu səfər erməni diasporunun planlaşdırdığı bir səfərdir. Onlar bununla rəy yaratmaq istəyirlər ki, dünyanın inkişaf etmiş ölkələrindən olan Almaniyadan da deputatlar qondarma rejimə səfər edirlər. Bu, ermənilərin marağına birbaşa xidmət edən məsələdir. Biz bu halı qətiyyətlə pisləyirik və hesab edirik ki, Azərbaycan bu qanunsuz səfərlə bağlı Almaniyanın ölkəmizdəki səfirliyinə nota təqdim etməli, etirazını bildirməlidir" - deyə N.Orduxanlı vurğuladı.

***İradə SARIYEVA***

# Avroliqanın finalını risqlərsiz keçirmək üçün Azərbaycana imkan verən əsaslar...

## *Azər Həsrət: "İstənilən qonağımız ölkəmizə gələnə qədər başqa fikirdə olur, gəlib buranı gördükdən sonra isə ölkəmizə münasibəti kökündən dəyişir"*

**Bu günə kimi bir sıra nüfuzlu beynəlxalq əhəmiyyətli tədbirlər keçirən Azərbaycan UEFA Avropa Liqasının final qarşılaşmasına da uğurla evsahibliyi eməklə tarixə yeni bir imza atmağa nail oldu. Londonun "Arsenal" və "Çelsi" komandaları arasında baş tutan maraqlı final oyununda qalib "Çelsi" komandası oldu.**

Azərbaycanın paytaxtında çoxdandır maraqla gözlənilən futbol yarışının uğurla başa çatması olduqca müsbət bir haldır və bu təbii qəbul edilməlidir. Final oyununu izləmək üçün müxtəlif xarici ölkələrdən paytaxtımıza saysız azarkeş gəldi.

UEFA Avropa Liqasının final oyununun yüksək səviyyədə təşkil edilməsinə, qonaqların xüsusi qonaqpərvərliklə qarşılanmasına, yerləşdirilməsinə, başlıcası isə oyunun təhlükəsizlik şəraitində keçirilməsinə Azərbaycan nəyin hesabına nail ola bildi?

Ekspertlər bildirirlər ki, UEFA Avropa Liqasının final matçının Bakı Olimpiya Stadionunda keçirilməsi ilə bağlı qərar son illər sürətlə inkişaf edən Azərbaycan idmanının qazandığı növbəti uğurdur. Mütəxəssislər bildirirlər ki, Azərbaycanın son illərdə bir neçə mötəbər beynəlxalq idman yarışına - I Avropa, IV İslam Həmrəyliyi oyunlarına, "Formula-1" yarışına, 42-ci Ümumdünya Şahmat Olimpiadasına yüksək səviyyədə evsahibliyi etməsi Azərbaycanın idman dövləti olduğunu bir daha bütün dünyaya nümayiş etdirdi. Ekspertlərin sözlərinə görə, bu gün ən mötəbər idman qurumlarının nüfuzlu beynəlxalq yarışlara evsahibliyi hüququnu tərəddüd etmədən Azərbaycana verməsi təsadüfi deyil.

**Əməkdar jurnalist, tanınmış ekspert Azər Həsrət "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ölkəmiz bütün bu məsələlərə uzun illərdən bəri qazandığı təcrübə sayəsində nail ola bildi.** "UEFA Avropa Liqasının final matçının Azərbaycan tərəfindən belə yüksək səviyyədə təşkil edilməsi həqiqətən də ölkəmizin Avropaya, dünyaya çox ciddi şəkildə inteqarsiya etdiyini göstərdi. Biz istər oyun ərəfəsində, istərsə də final qarşıdurmanın baş verdiyi gün hər tərəfdə müşahidə etdik ki, doğrudan da qonaqlara qayğı, diqqət göstərildi, ümumiyyətlə, onların ortaya çıxacaq problemlərinin əvvəlcədən həll edilməsi istiqamətində böyük addımlar atıldı. Yəni final matçını izləməyə gələnlərin heç biri əsaslı şikayət ortaya qoya bilmədi. Halbuki, biz prosesi izləyərkən müşahidə edirdik ki, bir sıra Qərb mediasının təmsilçiləri, eləcə də blogerlər, ayrı-ayrı sosial media fəalları məqsədli şəkildə "Azərbaycan dəhşətli bir yerdir, orada təhlükəsizlik problemi var" - deyə ölkəmiz haqqında mənfi rəy yaratmağa çalışırdılar. Ancaq sonra şəxsən mən özüm sosial media üzərindən izlədiyim hesablarda gördüm ki, adamlar bura gəldikdən, buradakı vəziyyəti yaxından müşahidə etdikdən sonra öz fikirlərini müsbət mənada dəyişdilər. Bu onunla bağlı idi ki, onlar Azərbaycana heç bir vaxt gəlməmişdilər, onlar, sadəcə, təbliğat qurbanı idilər, bu insanlar ölkəmizə gəldikdən sonra isə buradakı mənzərəni görüb fikirlərini dəyişdilər.





*"... biz bu cür tədbirlərin təşkil edilməsinin öhdəsindən yüksək səviyyədə gələ bilirik"*

Əlbəttə, bu ondan xəbər verir ki, Azərbaycan doğrudan da bu cür tədbirlərin keçirilməsində çox irəliyə gedib. Təcrübə də az deyil. Yəni "Avroviziya" mahnı müsabiqəsinin keçirilməsi, eyni zamanda, I Avropa Oyunlarının, İslam Həmrəyliyi Oyunlarının, "Formula-1" yarışlarının çox yüksək səviyyədə təşkil edilməsi və s. Azərbaycana əlavə təcrübə qazandırıb. Sözsüz ki, bu cür tədbirlərin yüksək səviyyədə keçirilməsi üçün dövlətin, Prezidentin ortaya qoyduğu iradə var. Təhlükəsizliyə gəlincə, bu, Azərbaycan ictimai rəyi üçün heç müzakirə mövzusu da deyil. Çünki bilirsiniz ki, Azərbaycan dünyanın ən təhlükəsiz ölkələri sırasında öndə gedir. Yəni istənilən qonağımız ölkəmizə gələnə qədər başqa fikirdə olur, gəlib buranı gördükdən sonra isə ölkəmizə münasibəti kökündən dəyişir ki, Azərbaycan həqiqətən də çox təhlükəsiz, güvənli bir ölkədir".

A.Həsrət qeyd etdi ki, matçı izləməyə gələn heç bir qonağımız bizdən narazı qalmayıb. Komandaların xaricdən gələn azarkeşlərinin heç biri ilə bağlı hər hansı bir problemin ortaya çıxmadığını deyən A.Həsrətin sözlərinə görə, bəzi şəxslər məqsədli şəkildə müəyyən təxribatlar törətməyə cəhd etsələr də, buna nail ola bilməyiblər. "Bəziləri Azərbaycanla bağlı mənfi rəy yaratmağa cəhd etdilər. O adamları da biz deşifrə etdik. Hətta biri guya internet üzərindən oteldə otaq sifariş verib, sonra bura gələrək başqa mənzərə ilə qarşılaşdığı iddiası ilə şəkil paylaşmışdı. Şəxsən mən həmin adamla "Tvitter" üzərindən əlaqə yaratdım və ondan xahiş etdim ki, həmin otelin adını və ünvanını yazsın, amma o yazmadı. O mənim davamlı israrımdan sonra bizi acıqlandırmaq məqsədilə səhifəsinə Ermənistan bayrağının rəsmini qoydu və biz bildik ki, o, hansı "bulaqdan su içir". Yəni beləri oldu. Ancaq ümumi rəy, fikir olduqca yüksək səviyyədə oldu. Xüsusən də final qarşıdurmasının Azərbaycan tərəfindən yüksək səviyyədə təşkil edilməsi ilə bağlı UEFA rəsmilərinin fikirləri birmənalı olaraq müsbətdir. Böyük Britaniyanın Azərbaycandakı səfirliyinin oyuna qədər də, oyundan sonra da qarşılanma ilə, təhlükəsizliklə bağlı açıqlaması oldu.

**Yəni heç kəs heç nədən narazı qalmadı. Azərbaycan həqiqətən də bu gün dünyaya standart ixrac etməkdədir və model ölkə olaraq biz bu cür tədbirlərin təşkil edilməsinin öhdəsindən yüksək səviyyədə gələ bilirik. Əlbəttə, bu durum da bizim bədxahlarımızı çox ciddi narahat edir. Bizim uğurlarımız xüsusən erməniləri və ermənilərə könlünü satmış "sapı özümüzdən olan baltaların" rahatlığını pozur. O adamlar ki, Azərbaycanın bu qədər uğurlarını görür, amma həzm edə bilmirlər, anti-Azərbaycan təbliğatı aparırlar" - deyə A.Həsrət vurğuladı.**

*İradə SARIYEVA*

# Mxitaryana görə Ermənistandan futbolçu alınmasına son qoyuldu - London idman hüquqşünaslarının təcili toplantısı...

**Müəyyən qüvvələrin apardığı təbliğata baxmayaraq, Azərbaycan UEFA Avropa Liqasının final qarşılaşmasına uğurla ev sahibliyi etdi. Bakı Olimpiya Stadionunda keçirilən, Londonun "Arsenal" və "Çelsi" komandaları arasında baş tutan maraqlı final oyunu bütün dünyanın diqqətini ölkəmizə yönəltdi. Uğurla baş tutan oyundan sonra dünya bir daha Azərbaycanın bu və digər belə oyunlara layiqincə ev sahibliyi edə biləcəyinə şahidlik etdi.**

Özü də budəfəki oyun bəzi parametrlər baxımından mühüm yeniliklərlə də yadda qaldı. Məsələn, Avropa Liqası tarixində ilk dəfə bu oyunda videonəzarət sistemindən istifadə olundu. Bundan başqa, bu turnirdə ilk dəfə olaraq komandalar əlavə vaxt təyin olunacağı təqdirdə dördüncü əvəzetmədən istifadə etmək hüququ qazandılar. Bu mənada, iki yüzdən çox ölkədə canlı yayımlanan final qarşılaşması həm də futbol tarixində vacib yeniliklərlə yadda qala bildi.

Bununla yanaşı digər maraqlı məqam ondan ibarətdir ki, final qarşılaşması ilə əlaqədar tamaşaçı tutumu 70 min yerə çatdırılan Bakı Olimpiya Stadionu bu baxımdan UEFA Avropa Liqasının tarixində 20 illik rekordu yeniləyib. Söhbət ondan gedir ki, Bakı Olimpiya Stadionu bu göstərici üzrə UEFA Avropa Liqasının final matçına ev sahibliyi edən stadionlar arasında ən çox tamaşaçı tutumuna malik arena olub. Belə ki, 1999-cu ildə "Parma" və "Marsel" komandaları Moskvanın 62 min tamaşaçı tutumuna malik "Lujniki" stadionunda üz-üzə gəliblər. O vaxtdan indiyə qədər olan rekord məhz Bakıda yeniləndi. Bütün bunlar isə sözügedən final oyununa qarşı aparılan qara piarın fiaskoya uğramasının real təzahürü qismində çıxış edir. Ekspertlər də bildirir ki, nəticələr UEFA Avropa Liqasının final matçının Bakı Olimpiya Stadionunda keçirilməsi ilə bağlı qərarının tam düzgün olduğunu, eyni zamanda son illər sürətlə inkişaf edən Azərbaycan idmanının qazandığı növbəti uğurunu göstərir. Belə vəziyyət həm də Azərbaycana qarşı aparılan təbliğatın başında duran erməni lobbisinin, Ermənistanın iflasa uğraması deməkdir. Bu arada, həmin təbliğatda erməni tərəfinin əsas iştirakçı qismində çıxış etdiyini təsdiqləyən növbəti mühüm məqamlar üzə çıxıb. Belə ki, yayılan məlumata əsasən, Ermənistanın baş naziri Nikol Paşinyan ölkəsinin yığmasının kapitanı və London "Arsenal"ının yarımmüdafiəçisi olan Henrix Mxitaryanla telefonla danışıb. Ermənistan baş nazirinin futbolçu Henrix Mxitaryana bu təcili zəngi bir daha sübut edir ki, Avropa Liqasının finalı ətrafında ingilis mətbuatında Azərbaycan əleyhinə olan hücumların arxasında erməni diasporu və Ermənistan hökuməti durub.




Bundan əlavə, Mxitaryanla bağlı məsələdə Ermənistanın baş naziri Azərbaycana irqçi hücum edib. Onun bu xüsusda dediyi aşağıdakı fikirlər xüsusi diqqət cəlb edir: "Nur-Sultandan döndükdən sonra Henrix Mxitaryanla telefonla danışdım və bu gün "Arsenal" və "Çelsi" komandaları arasında keçiriləcək oyundan əvvəl Bakının irqçi mövqeyinə görə həmin matçda iştirak edə bilməyəcəyi üçün ona dəstək verdim". Paşinyanın bu cəfəng fikirlərinə rəğmən, Azərbaycan bundan öncə dəfələrlə Mxitaryana ölkəmizdə hər cür təhlükəsizliyin təmini vədi verib. Amma erməni futbolçu Bakıda baş tutan Avroliqa finalına qatılmayıb. Mxitaryanın bu addımından isə erməni diasporu və Ermənistan mediası geniş şəkildə yararlanaraq Bakıya qarşı hücumlara başlayıb. UEFA Mxitaryanın Bakıdakı finalda iştirak etməməsi məsələsində Azərbaycanın yanında yer alıb, Bakının Mxitaryana hər cür təhlükəsizlik vədi verdiyini bəyan edib. Gənclər və idman naziri Azad Rəhimov BBC-yə müsahibəsində bununla bağlı maraqlı məqamlara toxunub. Azərbaycan tərəfindən hər cür təminat verilmiş, lakin Bakıya gəlməkdən imtina etmiş Mxitaryan haqqında sualları cavablandırarkən Azad Rəhimov bildirib: "Ermənistanlı idmançılar Bakıda 2015-ci ilin Avropa Oyunlarında və digər idman tədbirlərində iştirak ediblər. Buna görə də, mən bu insanın gəlməkdən imtina etməsini anlamıram. Ola bilsin ki, ona qonşularınız tərəfindən hansısa təzyiqlər olub. Mən doğrudan da anlamıram ki, vəziyyət niyə dəyişib. Əvvəllər çox sadə idi. Biz Ermənistanla razılığa gəlmişik ki, istənilən idmançı idman nazirinin məktubundan sonra təhlükəsizlik təminatı alır. Biz bu məktublarla mübadilə edirdik və hər şey çox rəvan idi. Lakin indi bilmirəm ki, nə dəyişib. Bəlkə bu, Ermənistanın yeni hökumətinin işidir, ya da sadəcə olaraq bu insanın və onun ailəsinin qərarıdır. İstənilən halda, təminatla bağlı problem yoxdur".

Bu açıqlamalar bir daha təsdiq edir ki, Mxitaryan olayı süni şəkildə qurulub. Yeri gəlmişkən, bu futbolçu əvvəllər də Bakıya gəlməkdən şəxsi təşəbbüsü ilə imtina edib. Belə ki, Azərbaycan 2015-ci ildə Avropa Liqasının oyunları çərçivəsində Mxitaryanın "Qəbələ" klubu ilə oynamaq üçün "Borussiya" klubunun tərkibində, 2018-ci ildə isə "Qarabağ" klubu ilə oynamaq üçün "Arsenal"ın tərkibində Bakıya gəlməsinə etiraz etməyib. Amma Mxitaryan bundan özü imtina edib. Onun son addımı "Arsenal" klubunda belə ciddi narazılıq yaradıb. Azərbaycanın və UEFA-nın təhlükəsizliklə bağlı ən yüksək səviyyədə təminat verməsinə rəğmən, erməni futbolçunun "Arsenal" üçün böyük önəm daşıyan matça gəlməkdən boyun qaçırması klubda ciddi narazılığa səbəb olub. London təmsilçisinin rəhbərliyi Mxitaryanın təxribatçı davranışını müqavilə şərtlərinə əməl etməmək kimi qiymətləndirib. Klub yay fasiləsində onu satacağını açıqlayıb. Başqa sözlə, Mxitaryan özünün və ailəsinin qərarı ilə Bakıya gəlməkdən boyun qaçırdığı üçün satışa çıxarılacaq. Bundan başqa, yaxın günlərdə Mxitaryanın məsələsi ilə bağlı Londonda idman hüquqşünaslarının toplantısı planlaşdırılıb. İclasda Ermənistan yığmasının üzvünün müqavilələyə riayət etməməsi müzakirə olunacaq. Həmçinin İngiltərə klublarına siyasi qalmaqallarda iştirak edən futbolçuların transfer edilməməsi tövsiyə olunacaq. Məhz qeyd edilənlər erməni lobbisinin və Ermənistanın Azərbaycana qarşı piarının iflasa uğradığını göstərir. Eyni sözləri Azərbaycana qarşı piar kampaniyasında iştirak edən bəzi ingilisdilli media vasitələri barədə də demək olar. Bu xüsusda Rusiyanın "nyus.ru" portalı da yazır ki, ingilis mediasının Azərbaycana qarşı Mxitaryan üzərində qurduğu şou iflasa uğrayıb. Qeyd olunur ki, məşhur ukraynalı futbolçu Oleq Bloxin də Mxitaryanın hərəkətini axmaqlıq kimi qələmə verib. Portal qeyd edir ki, UEFA prezidenti Aleksandr Çeferin final oyunu ilə bağlı bütün hazırlıq işlərini ən yüksək səviyyədə qiymətləndirib. Çeferin Avroliqanın final oyununun keçirilməsi üçün niyə Bakının seçdiklərini açıqlayıb: "Niyə? Çünki orada yaşayan insanlar futbolu sevir. Təkcə İngiltərə və Almaniyada deyil, hər yerdə futbolu inkişaf etdirməliyik. Bakıdakı azarkeşlər canlı futbol görmək istəyində haqlı deyillərmi?! Yeri gəlmişkən, mən asanlıqla uçuşlar üçün aviabiletlərin olduğunu söylədim. Lakin kimsə bu haqda danışmır". Portal daha sonra yazır ki, Bakıda yüksək səviyyədə baş tutan oyun Azərbaycana qarşı kampaniya aparan media vasitələrinin də iflasa uğradığını göstərdi. Əksinə, son final oyunundan sonra Azərbaycana dünya miqyasında diqqət və hörmətin daha da artması müşahidə olunur.

Təsadüfi deyil ki, bu gün ən mötəbər idman qurumları nüfuzlu beynəlxalq yarışlara ev sahibliyi hüququnu tərəddüd etmədən Azərbaycana verir. Belə ki, UEFA Avropa Liqasının final oyunu ilə yanaşı, 2020-ci ildə futbol üzrə Avropa çempionatının qrup mərhələsinin üç, dörddəbir final mərhələsinin bir oyununun, bu il iyulun 20-28-də Avropa Gənclərinin Yay Olimpiya Festivalının Bakıda keçirilməsi barədə qərarlar verilib. Bu isə Azərbaycan üçün mühüm uğurlardır.

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Separatçı "DQR" rejiminin rəhbərliyində dərin ümidsizlik - Nursultanda planlaşmış Putin-Paşinyan görüşü baş tutmadı

**Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həlli istiqamətində aparılan danışıqların yaxın tezlikdə müsbət nəticələr verəcəyinə dair məlum açıqlamalarından sonra əsas diqqət tərəflərin növbəti görüşünə yönəlib. Xatırladaq ki, nazirlərin növbəti görüşü yaxın tezlikdə ABŞ-da baş tutmalıdır. Verilən açıqlamalardan isə belə bəlli olur ki, məhz bu görüşdən sonra konfliktin dinc müstəvidə çözümü istiqamətində, nəhayət, əməli addımlar atıla bilər.**

Bununla belə, Ermənistanın bundan əvvəl də fərqli davranışlar nümayiş etdirməsi fonunda Azərbaycan ehtiyat tədbirlərini də əldən vermir. Yəni danışıqlar yolu ilə istənilən nəticə əldə edilməyəcəyi təqdirdə, Azərbaycan ərazi bütövlüyünün güc yolu ilə bərpasına da hazırdır və bu xüsusda Ermənistana kifayət qədər aydın mesajlar verilib. Əslində, Ermənistanda da yaxşı dərk edirlər ki, Bakı artıq Qarabağ məsələsinin uzanmasına dözmək niyyətində deyil, ya sülh, ya da hərb yolu ilə istəyinə nail olacaq. Erməni ekspert Karen Vrtanesyan bu xüsusda bildirir: "Hərbi sahədə heç bir şey dəyişməyib, döyüş hazırlığı olduğu kimi qalmaqda davam edir". Onun sözlərinə görə, bir balaca hərbi ritorikada səngimə vardısa, artıq bu, fevral ayından yenidən davam edir: "Qarabağda hərbi əməliyyatlar, müxtəlif səviyyələrdə çox ciddi ssenarilər oynanılır. Hərbi baxımdan Azərbaycan Qarabağı geri qaytarmaqla Ermənistana qarşı müharibəyə hazırlaşır və hazırlaşmaqda davam edir. Təbii ki, danışıqlarda nəticə olmasa, savaş qaçılmazdır".

İşğal altında olan Qarabağdakı qondarma qurum "rəhbərinin müşaviri" Tiqran Abrahamyan da vəziyyətin ölkəsinin ləhinə olmadığını vurğulayır. Onun sözlərinə görə, Azərbaycan cəbhə xəttində hərbi texnika baxımından kifayət qədər təchizatlıdır: "Cəbhə boyu yerləşən hərbi bazalar komplektləşdirilir". Bütün bunlar bir daha təsdiqləyir ki, erməni tərəfi Azərbaycanın, ehtiyac yarancağı halda, hərbi güc vasitəsilə ərazi bütövlüyünü bərpa etməyə hazır olduğunu yaxşı dərk edir. Məsələyə münasibət bildirən rus politoloq Stanislav Tarasov da vurğulayır ki, Bakı istəyinə güc yolu ilə çatmaq üçün bütün imkanlara malikdir. Amma onun sözlərinə görə, indilikdə danışıqlar yolu ilə məsələnin həlli Azərbaycanın marağındadır və Ermənistan da buna hazır olmalıdır. Ekspert qeyd edir ki, əslində, Nikol Paşinyan hakimiyyətini itirmək təhlükəsi hiss etməsə, işğal altındakı ərazilərin müəyyən bir qismini Azərbaycanın nəzarətinə qaytarmağa hazırdır. Tarasov qeyd edir ki, bu durumda Paşinyanın məhkəmə hüquq sistemində islahatlar aparılması və işğal altında olan Qarabağda xəyanətkarların olduğunu görməsi barədə çıxışı da təsadüf sayıla bilməz. Onun sözlərinə görə, Paşinyan işğal altında olan Qarabağda müharibəyə təşviq etmək və ərazilər qaytarmaq məqsədi olan xəyanətkarlar haqqında danışmaqla, Ermənistanın ikinci prezidenti Robert Köçəryan və Xankəndidə olan qondarma "rəhbərlik" arasında körpü yaratmağa çalışıb: "Bununla da, Paşinyanın fikrincə, onlar guya bəzi ərazilərin qaytarılmasına hazırdır və bu, rus layihəsidir". Tarasov son zamanlar rus jurnalistlərlə görüşlərində Paşinyanın dediklərinə diqqət ayırmaqla, xüsusən qeyd edir: "Mən Ermənistanın strateji tərəfdaşı olan Rusiyanın regionda müharibənin qarşısını almaq üçün öz imkanlarından istifadə etməyəcəyinə inanmaq istəmirəm. Amma Paşinyanın sözlərindən belə çıxır ki, Azərbaycanın döyüşlərə başlamasına Rusiya icazə verib. Yəni söhbət daxili erməni məsələlərindən yox, İrəvanın Moskva ilə münasibətlərinin gərginləşdirilməsi istiqamətində oyun oynamasından gedir. Əslində, münasibətləri İrəvan özü gərginləşdirib və yaranmış durum Qarabağ münaqişəsinə də təsir göstərir. İndi Azərbaycanın daha əlverişli mövqedə olması özünü aydın göstərir, həm diplomatik, həm də hərbi sahədə. Bu vəziyyətdə İrəvanın Bakı ilə razılaşmaqdan başqa seçimi də yoxdur və əslində, Moskvanın real vəziyyətdə istəyi də budur".

Eyni zamanda diqqət ona yönəldilir ki, Moskva həm də indiki Ermənistan hakimiyyətini cəzalandırmaq üçün belə bir mövqe sərgiləyir. Ermənistan hakimiyyətinin nümayəndə heyəti ilə birgə Nur-Sultan şəhərinə yola düşən erməni jurnalistlər də məhz bu fonda maraqlı açıqlamalar veriblər. Erməni jurnalistlərin sözlərinə görə, Rusiya Federasiyasının hakimiyyət orqanları Ermənistanın yeni hakimiyyətini gözardına vurmaqda davam edir: "Rusiya Federasiyasının hakimiyyət orqanları Ermənistanın yeni hakimiyyətini gözardına vurmaqda davam edirlər. Qazaxıstanın paytaxtı Nur-Sultan şəhərində Avrasiya ali iqtisadi şurasının iclası başa çatıb. Nikol Paşinyan - Vladimir Putin ehtimal olunan ikitərəfli görüşü baş tutmayıb".

Putin-Paşinyan ehtimal olunan görüşünün iflasa uğraması erməni-rus münasibətlərində yüksək dozalı etimadsızlığın qalmaqda davam etdiyindən xəbər verir. Paşinyan rus tərəfinin xoşuna gəlmək üçün əlindən gələn hər şeyi etsə də, bütün səyləri nəticəsiz olub. Buna misal olaraq, Paşinyan öz prinsiplərinə zidd gedərək, KTMT-nin Baş katibi vəzifəsinə Belarus namizədi Stanislav Zası qəbul etdi və onun 2020-ci ildən təyinatını razılaşdırdı. Bir neçə ay öncə Paşinyan Ermənistan qanunlarını kobud pozaraq, Suriyaya hərbi birləşmə göndərdi. Suriyaya erməni hərbi birləşməsi hər hansı beynəlxalq müqavilə olmadan yalnız Rusiya tərəfi ilə şifahi əldə edilmiş razılaşma əsasında göndərilib. Erməni jurnalistlər bildirir ki, Paşinyanın hakimiyyəti dövründə erməni-rus münasibətləri "cavabsız sevgi"yə bənzəyir. Məhz bu vəziyyətdə Rusiyanın Qarabağ məsələsində də Ermənistanı yalnız buraxması təbii sayılır.

Vaşinqtonun Karnegi beynəlxalq sülh fondunun aparıcı elmi əməkdaşı Pol Stornski isə qeyd edir ki, Qarabağ məsələsində Vaşinqton da İrəvandan vaz keçib. O qeyd edir ki, münaqişənin həlli istiqamətində indi maraqlı tərəflərdən biri həm də ABŞ-dır. Yəni artıq bu məsələdə Rusiya və ABŞ-ın yanaşması üst-üstə düşür. Onun sözlərinə görə, son vaxtlar Ermənistan və ABŞ ekspert dairələrində İrəvanda siyasi vəziyyətin dəyişməsi, nəticədə qeydə alınan böhranlı vəziyyətdən sonra Paşinyanın verdiyi açıqlamalarla bağlı müzakirələr fəallaşıb. O qeyd edib ki, Birləşmiş Ştatlar Ermənistanın öz xarici siyasət mövqeyinin Rusiyadan Qərbə doğru dəyişəcəyini gözləmir və bu halda Bakı Vaşinqtonu özünə daha çox cəlb edir. Bu məsələyə toxunan erməni politoloq Suren Sarkisyan isə qeyd edib ki, Rusiya və ABŞ-ın Azərbaycanın yanında yer alması Ermənistanı çətin vəziyyətdə qoyur: "Münasibətlərin tipi və məzmununa gəldikdə, Birləşmiş Ştatlar Gürcüstan və Azərbaycanı strateji tərəfdaş ölkə hesab etdiyi halda, Ermənistanı strateji həmsöhbət hesab edir. Ermənistanın xarici siyasətindəki mövqeyi, KTMT və AİƏT kimi təşkilatlara üzvlüyü Rusiya ilə strateji münasibətləri elə bir nöqtəyə çatıb ki, rəsmi İrəvan Rusiya ilə aralarında olan strateji münasibət kimi bir səviyyəni Birləşmiş Ştatlarla yarada bilməz. Münasibətlər haqqında danışarkən özümüz-özümüzə sual verməliyik, doğrudanmı Ermənistanın Birləşmiş Ştatların strateji tərəfdaşı olmağa imkanı var? Yox. Amma baxın, Azərbaycan bu xüsusda Ermənistanı xeyli geridə qoya bilib. Ona görə də ABŞ-dan verilən açıqlamalarda Azərbaycan daha çox ön plana çıxır və bura Qarabağ münaqişəsi də aiddir".

Məsələnin bu tərəfinə nəzər salan Stanislav Tarasov da vurğulayır ki, ABŞ tərəfi tanınmış elmi siyasi qurumların təkliflərini əsas götürərək, Dağlıq Qarabağ ətrafındakı rayonların Azərbaycana qaytarılması, Qarabağa isə ən yüksək muxtariyyət statusunun verilməsini nəzərdə tutan variant təklif edir: "Eyni zamanda bu həll variantı xarici donorların cəlb edilməsi ilə bölgənin iqtisadi və kommunikasiya sahəsində ən geniş inteqrasiyasını nəzərdə tutur. Bunun sayəsində növbəti ziddiyyətlərin sıfır dərəcəsində olacağı ehtimal edilir. Bu, Azərbaycan üçün qəbulolunandır". Məhz bütün bunlar əsasında ekspertlər hesab edir ki, Ermənistan artıq danışıqlar masasında Azərbaycanın Qarabağ şərtləri ilə razılaşmağa məcburdur. Çünki Rusiya və ABŞ da qeyd olunan istiqamətdə İrəvana təzyiqlər göstərir. Üstəgəl, Azərbaycan ordusunu da hazır vəziyyətdə saxlayır və danışıqlarda istənilən nəticə əldə olunmayağı halda güc variantından istifadəyə tam hazırdır. Güc variantının nə ilə nəticələnəcəyi, əslində ermənilərin özünə də yaxşı məlumdur. Məhz bu səbəbdən erməni cəmiyyətində getdikcə belə bir fikir hakim olur ki, məsələnin sülh yolu ilə həlli Ermənistan üçün daha məqbuldur. Bunu erməni əsilli ukraynalı tədqiqatçı Filip Ekozyantsın özünün "Youtube" kanalında keçirdiyi sorğu və onun nəticələri də təsdiq edir. Sorğuda tədqiqatçı izləyicilərindən 3 suala cavab istəyib:

1. Azərbaycan və Serbiya öz ərazi bütövlüyünü bərpa etməlidirmi? Söhbət Dağlıq Qarabağ və Kosovodan gedir. 2. Bu ərazilər üzərində nəzarəti qaytardıqdan sonra Dağlıq Qarabağ və Kosovoya muxtariyyət verilməlidir? 3. Ərazilərin qaytarılmasından sonra Azərbaycan və Serbiya əhaliyə (ermənilər və kosovolular) öz ana dilindən ikinci dövlət dili kimi istifadə etmək imkanı verməlidir?

Ekozyantsın sözlərinə görə, insanların əksəriyyəti bu suallara müsbət cavab verib: Azərbaycan və Serbiya öz ərazi bütövlüyünü bərpa etməli, Qarabağ və Kosovoya muxtariyyət verilməli, erməni və alban dillərindən istifadəyə icazə verilməlidir: "Çoxları Azərbaycanla bağlı suala cavab verərkən bildirib ki, SSRİ vaxtında hər şey məhz bu cür olub - ermənilər öz dillərində təhsil alıb. Heç kim onlara bunu qadağan etməyib". Ekozyants izləyicilərinə ünvanlandığı sualları özü də cavablandırıb. Onun sözlərinə görə, Azərbaycan və Serbiya öz ərazi bütövlüyünü bərpa etməlidir. Çünki hər iki dövlətin buna hüququ çatır: "Bundan sonra Azərbaycan və Serbiya Qarabağa və Kosovoya muxtariyyət verməlidir. Bu düzgün olardı. Cəmiyyətlərin, məsələn, ermənilərin getdikcə daha çoxu məsələnin bu qaydada həllinə tərəfdardır". Beləliklə, bütün bunlar maraqlı nəticələri üzə çıxarır. Söhbət ondan gedir ki, dünya gücləri artıq Qarabağ münaqişəsinin həlli istiqamətində real addımlar atılmasını istəyir. Azərbaycan isə bu fonda bəyan edir ki, real nəticələr olmasa, güc variantının tətbiqi qaçılmaz olacaq. Erməni cəmiyyətində də belə bir fikir hakimdir ki, Qarabağ məsələsində Azərbaycanla razılığa gəlmək vacibdir. Düzdür, müəyyən qüvvələr siyasi məqsədləri üçün buna qarşı çıxsalar da, sadə ermənilərin böyük əksəriyyəti indi tamam fərqli mövqedədir. Məhz bütün bu faktorların cəmi yaxın tezlikdə Qarabağ münaqişəsinin həlli istiqamətində müəyyən yeniliklərin olacağını istisna etmir.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Ermənistanla qondarma "DQR"in münasibətlərinin gərgin olduğu barədə məlumat vermişdik. Tərəflər arasındakı ziddiyyətlərin Paşinyan hakimiyyətə gələndən sonra baş qaldırdığı məlum idi. Çünki Paşinyan etdiyi inqilabla əslən Qarabağdan olan bir klanın uzun sürən hakimiyyətinə son qoymağı bacardı.**

# Son 27 ildə ilk erməni hadisəsi - qondarma "DQR" "rəhbərləri" Ermənistanda respublika tədbirlərinə gəlmədi...



***Qabil Hüseynli:** "Ermənistandakı hazırkı şərait ordumuzun Dağlıq Qarabağ və ətraf əraziləri işğaldan azad etməsi üçün əlverişli fürsət yaradıb"*

Sonra onun təkidli tələbləri ilə "Qarabağ klanı"nın liderlərindən olan eks-prezident Köçəryan həbs edildi. Ancaq Baş nazir onu uzun müddət həbsdə saxlamağa müvəffəq ola bilmədi. Maraqlıdır ki, Köçəryanı İrəvanda həbsdən buraxdıran qondarma "DQR"in indiki və sabiq rəhbərləri oldu. Bundan sonra tərəflər arasındakı ziddiyyət daha açıq müstəviyə keçdi. Hətta vəziyyət o həddə çatdı ki, Paşinyan bir vaxtlar fəxrlə Qarabağa hərbi xidmətə əsgər göndərdiyi oğlu Aşotu öz gözünün qabağına aparmalı oldu. Qondarma qurumla Ermənistan arasındakı ziddiyyəti açıq sübut edən daha bir fakta diqqət edək. Bir vaxtlar Azərbaycan torpaqlarında yaradılmış Ermənistanın qeyd etdiyi son "Respublika günü" ilə bağlı tədbirlərə separatçı erməni rejiminin nümayəndələri qatılmayıblar.

Bu haqda erməni KİV-i məlumat yayıb. Məlumatda son 27 ildə belə halın birinci dəfə baş verdiyi qeyd edilib. Ermənistan müxbirinin bu haqda sualına cavab olaraq separatçı rejim "başçısının" "mətbuat katibi" sayılan David Babayan Bako Saakyanın İrəvana yollanmamasını Minsk Qrupu həmsədrlərinin mayın 28-də Xankəndinə gəlişi ilə izah edib. Qondarma rejimin digər məmurlarının "Respublika günü"nə qatılmaması haqda isə mətbuat katibi danışmayıb.

Bu arada artıq yeni partiya yaratdığını bəyan etmiş eks-prezident Robert Köçəryanın İrəvandakı otellərdən birində öz tərəfdarlarıyla bir araya gəlməsi də bildirilib.

Separatçı rejim rəhbərliyinin Ermənistanda qatıldığı ənənəvi bayram tədbirində iştirakdan məsafə saxlamasını necə şərh etmək olar?

**Politoloq Qabil Hüseynli qəzetimizə bildirdi ki, Ermənistandakı daxili vəziyyət çox gərgindir:** "Həmin ölkənin rəhbərliyi bunu son dərəcə gizlətməyə çalışsa da, mümkün olmur. Artıq ziddiyyətlər pərdəarxası deyil, açıq kartlarla aparılan oyunlarda özünü göstərir. Köçəryanın həbsdən azad edilməsi və Paşinyanın onu geri qaytarmağa gücünün yetməməsi göstərir ki, köhnə klan hardansa güc alır və hətta Baş naziri devirməyi belə düşünür. Belə bir planın olduğunu Ermənistan KİV-i yazdı və rəsmi şəxslər də buna reaksiya verərək, məlumatın doğruluğunu təsdiqlədilər. Bildirildi ki, əslən Qarabağdan olan erməni general və iş adamları hətta bir sədaqət andı da içiblər. Paşinyanın oğlunun Qarabağda hərbi xidmətdə olmasına güvənməməsi artıq münasibətlərin düşmənçilik səviyyəsində olduğunu göstərir. Ermənistanın yeni hakimiyyəti əksinqilabı beşiyində boğmaq istiqamətində hərəkətə keçib. Dağlıq Qarabağdakı qondarma rejimə müxalif olan qüvvələrə açıq dəstək verir, onları bir yerə toplayın siyasi alyans yaradıb. Dediyiniz məsələ isə qarşıdurmanın pik həddə çatdığını şərtləndirir. Bəli, Ermənistan mətbuatı açıq yazır ki, belə bir hal müstəqillik elan olunandan sonra ilk dəfədir baş verir. B.Saakyan iştirak edə bilmirdisə, qondarma qurumun "rəhbərlərindən" birini göndərə bilərdi. Bunu da etməyibsə, ya dəvət gəlməyib, ya da Moskva, birmənalı olaraq, orada iştiraka icazə verməyib. Bu nəticəyə gəlinir ki, Rusiya bu cür vasitələrlə oradakı vəziyyəti qarışdırıb, Paşinyanı tez yola salmaqda maraqlıdır".

Politoloqun sözlərinə görə, Ermənistandakı hazırkı şərait ordumuzun Dağlıq Qarabağ və ətraf əraziləri işğaldan azad etməsi üçün əlverişli fürsət yaradıb: "2016-cı ilin aprel döyüşlərindən sonra bu fürsət azı 3-cü dəfə yaranıb. Birinci dəfə Ermənistanda ara qarışanda, Paşinyan küçə yürüşlərinə başlayanda, ikincisi, Ermənistanda seçkilər başlayanda, üçüncüsü də indi. Sadaladığım dövrlərdə öz torpaqlarımızda antiterror əməliyyatları aparıb ərazi bütövlüyümüzü bərpa etmək üçün münasib şərait yaranmışdı. Bu, BMT-nin nizamnaməsi ilə bizə verilən təbii haqqımızdır. Ermənilər də vaxtilə Azərbaycandakı qarışıqlıqdan, başıpozuqluqdan istifadə edərək Dağlıq Qarabağ və onun hüdudlarından kənardakı 7 rayonu rusların köməyilə ələ keçirmişdilər. İndi biz də yaranmış fürsətdən istifadə edərək öz torpağımızı geri qaytara bilərik.

Hələ ki, məsələlər bəlli bir səviyyədə cərəyan edir. Amma ortada formalaşmış bir düşmənçilik, qarşıdurma ideologiyası var. Belə ideologiyalardan, bir qayda olaraq, toqquşma, qarşıdurma törəyir.

Paşinyanın hakimiyyətdən getməsi hələlik yetişmiş proses deyil, amma dediyimiz hadisələr gərginləşərsə, ox yaydan çıxarsa, hər şey ola bilər. Paşinyanın reytinqinin azaldığını, onun əvvəlki Paşinyan olmadığını əminliklə söyləmək mümkündür".

***Məhəmmədəli QƏRİBLİ***

---

**Məlum olduğu kimi, Qazaxıstanın paytaxtı Nursultan şəhərində Avrasiya İqtisadi İttifaqının iclası keçirilib. İclasda Ermənistanı Baş nazir Nikol Paşinyan təmsil edirdi. Lakin Paşinyan gözlənilmədən səfər qrafikinə dəyişiklik edərək Ermənistana tez qayıdıb.**

# Paşinyanın Nursultanda (Astanada) erməni iş adamları ilə görüşü niyə baş tutmadı...



*"Yeni hakimiyyət fürsət düşdükcə daha çox Qərbə can atır"*

***Arzuxan Əlizadə:** "Qazaxıstanda Paşinyanın üzləşdiyi rəzalət onu göstərir ki, o, ciddi dövlət başçısı kimi qəbul edilmir"*

Ermənistan KİV-inin yaydığı məlumata görə, Baş nazir qəfildən səfər çərçivəsində nəzərdə tutulan görüşlərdən imtina edərək İrəvana yola düşüb. Belə ki, Paşinyanın iclasdan sonra Qazaxıstanda yaşayan erməni iş adamları ilə görüşü və digər tədbirlərdə iştirakı nəzərdə tutulurdu. Lakin bu görüş baş tutmayıb.

Məlumatda o da deyilir ki, o, həmçinin, mətbuat nümayəndələrilə görüşdən və suallara cavab verməkdən də imtina edərək, sadəcə, standart yazılı bəyanat yayıb.

Qeyd edək ki, sözügedən toplantıda Belarus, Qazaxıstan, Qırğızıstan və Rusiya liderləri iştirak ediblər. İclas başlamazdan əvvəl Nursultan Nazarbayev Belarus Prezidenti Aleksandr Lukaşenko, Rusiya Prezidenti Vladimir Putin və Qırğızıstan Prezidenti Sooranbay Jookayevi "Nursultan" ordeni ilə təltif edib. N.Paşinyan isə bu ordenə layiq görülməyib. Güman edilir ki, Paşinyanı saya saymamaları onu məyus edib. Böyük ehtimalla, erməni Baş nazirin Qazaxıstan paytaxtına səfərində hansısa narazılıq, yaxud problem yaşanıb. Çünki, demək olar, əksər erməni KİV-i səfərin yarımçıq dayandırıldığı barədə məlumat yayıb.

Bütün hallarda, baş verənləri ekspertlər necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən AMİP-in baş katibi Arzuxan Əlizadənin sözlərinə görə, bütün bunlar Paşinyanın uğursuz siyasət aparmasının göstəricisidir:** "Bu səbəbdən Paşinyan ard-arda uğursuzluqlarla üzləşir. Xarici siyasi məsələlərdə hər şey göz önündədir. Məsələ ondadır ki, nə Rusiya, nə də Qərb Paşinyanın səmimiyyətinə inanır. Elə bu səbəbdən də hər iki tərəfdən rəsmi şəkildə nə dəvət alır, nə də qəbul edilir. Ölkə daxilində də ciddi problemlər göz önündədir. Qazaxıstanda Paşinyanın üzləşdiyi rəzalət onu göstərir ki, o, ciddi dövlət başçısı kimi qəbul edilmir. Ermənistanın Aİİ-nin üzvü olması bu məsələdə nəyisə dəyişmir. Xüsusən də Qazaxıstanla Ermənistanın münasibətləri o qədər də yaxşı deyil. Qazaxıstanın sabiq prezidenti N.Nazarbayev dəfələrlə müxtəlif toplantılarda Azərbaycanın mənafeyini müdafiə edib. Açıq şəkildə bunu bəyan etməkdən çəkinməyib. Qazaxıstanda Ermənistanda "məxməri inqilab"dan sonra hakimiyyətə gələn Paşinyana münasibət yaxşı deyil. Ötən qış ermənilər Qazaxıstanda müəyyən təxribatlar törətmək istədilər. Nəticədə Qazaxıstan ictimaiyyəti buna etiraz etdi. Bütün bunların nəticəsidir ki, Paşinyan Qazaxıstanda urvatsız qarşılandı. Qazaxıstan rəhbərliyi görür ki, Paşinyan Baş nazir olandan sonra Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının fəaliyyətini iflic etməyə çalışdı. Aİİ-də Ermənistan formal iştirak edir və bu təşkilata fayda vermək istəmir. Yeni hakimiyyət fürsət düşdükcə daha çox Qərbə can atır. Ona görə də Paşinyanla məsafəli davranırlar və ona ciddi yanaşmırlar. Bütün bu səbəblər üzündən Paşinyanın səfəri uğursuz və yarımçıq alınıb. Hətta erməni iş adamları ilə belə görüşə bilməyib. Hesab edirəm ki, bu, münasibətlərin yaxşı olmadığının əyani göstəricisidir".

***Vidadi ORDAHALLI***

# Paşinyanın iki pərdəarxası oyunu və bir hədəf - Avrasiya İB-nin də KTMT kimi nüfuzdan salınma prosesi gedir...

**Məlum olduğu kimi, Ermənistanın Baş naziri Nikol Paşinyan Qazaxıstanın paytaxtı Nursultanda Avrasiya İqtisadi Birliyi sazişinin 5-ci ildönümünə həsr olunmuş Ali Avrasiya İqtisadi Şurasının yubiley iclasında iştirak edib. Rotasiya qaydasına uyğun olaraq, iclasa Paşinyan sədrlik edib.**



## "Paşinyan buna zərrə qədər də nail ola bilməyəcək"

Toplantıda müzakirə olunan məsələlərdən də görünür ki, Paşinyanın sədrliyi ilə keçən iclas qeyri-ciddi mahiyyət daşıyıb. Ora toplaşan dövlət başçıları real işlərdən yox, bir-birilə zarafat edərək, keçmiş xatirələrindən danışıblar. Arada bir də Paşinyana atmacalar atıblar. Hətta qeyri-ciddi məsələlər ətrafında keçən müzakirədə belə, Paşinyan Avrasiya İttifaqının indiki dönəmə qədər olan fəaliyyətini tənqid edib, qurumu, faktiki olaraq, fəaliyyətsizlikdə ittiham edib. Baş nazir Paşinyanın sözlərinə görə, Ermənistan Avrasiya İqtisadi Birliyinin rəqəmsal gündəminin yaradılması və həyata keçirilmə prosesini dəstəkləyir. O, ümumi enerji bazarımın yaradılmasının əhəmiyyətini vuğulayıb. Bunun üzv ölkələrə elektrik istehsalçıları və istehlakçılarının iqtisadi maraqlarına əsasən, bərabərlik, qarşılıqlı fayda, ədalətli rəqabət prinsipləri əsasında əməkdaşlığı inkişaf etdirməyə kömək edəcəyini deyib. Çox maraqlıdır ki, bir vaxtlar Ermənistanın Rusiyanın himayəsi altında qurulan birlik və ittifaqlardan çıxması barədə təşəbbüs və qanun layihələrinin müəllifi olan N.Paşinyan indi tamam fərqli bir ampluadan çıxış edir. Vaxtilə o, bu qurumların Ermənistana yaxşı heç nə vəd etmədiyini, yalnız iqtisadi və siyasi problemlərə səbəb olacağını iddia edirdi. "Məxməri inqilab"dan sonra isə tamamilə fərqli bəyanat və açıqlamalar verməyə məcbur edilib. Söhbət Avrasiya İqtisadi İttifaqından gedir. İndi isə Baş nazir erməni xislətinə uyğun olaraq, tamam başqa bir mövqedən çıxış edir. İsrarla bildirir ki, Ermənistan Avrasiya İqtisadi İttifaqından mənfəətlər əldə edə, tərəfdaşlıq münasibətlərini genişləndirə bilər. Ola bilərmi ki, Paşinyanın qeyri-səmimi xarakterli bu səyləri KTMT kimi Avrasiya İttifaqını da gözdən salmağa hesablanıb?

## *Yeganə Hacıyeva: "Paşinyan bütün gücü ilə çalışır ki, AİI-ni də KTMT kimi nüfuzdan salmaq istiqamətində işlər görsün"*

**Politoloq Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Qazaxıstan paytaxtında AİI-nin yubiley tədbirinə qatılan Paşinyan yenə də Ermənistan və AİI arasında əməkdaşlığın perspektivindən bəhs edib:** "Lakin məsələ ondadır ki, quruma daxil olan ölkələr də onun səmimiyyətinə inanmırlar. Görünür, elə bu səbəbdən də AİI ideyasının müəllifi Nursultan Nazarbayev N.Paşinyanı yubiley medalı ilə təltif etmək istəməyib. N.Nazarbayev Qazaxıstan paytaxtına gəlmiş qonaqlara yubiley münasibətilə öz adını daşıyan ordenlər verib. Qeyd olunur ki, N.Paşinyandan başqa, hamı ordenlə təltif olunub. Bütün bunlar Paşinyana etibarın və güvənin olmadığını göstərir. Bunu açıq hiss edən Paşinyan təbii ki, bütün gücü ilə çalışır ki, AİI-ni də KTMT kimi nüfuzdan salmaq istiqamətində işlər görsün. Yadınızdadırsa, onun hakimiyyətə gələn kimi ilk addımı məhz KTMT ilə bağlı oldu. Oranın Ermənistandan olan baş katibini zindana saldı. Həmin vaxt qurumda təmsil olunan ölkələrin başçıları demişdilər ki, Paşinyan bu addımı onlarla məsləhətləşmədən atıb. Paşinyanın sədrlik etdiyi toplantı doğrudan da qeyri-ciddi xarakterli idi. Sanki onu ələ salırdılar. Putin bir dəfə onun atasının adını səhv tələffüz etdi. Sonra ondan əvvəlki dövlət başçısı Sarkisyanın fəaliyyətindən Paşinyanın fəaliyyəti kimi danışdı. Bunları görən Paşinyan yerində olmayan dövlət başçısı kompleksini yaşayır. Buna görə də Paşinyan sanki bu qurumları saya salmır kimi bir yanaşma ortaya qoymağa çalışır. Guya onların fəaliyyətində nöqsanın olduğunu qabardır. Əsas məqsədi isə Avrasiya İttifaqına da KTMT-yə bəslədiyi münasibəti ortaya qoymaqdır. Ancaq hesab edirəm ki, Paşinyan buna zərrə qədər də nail ola bilməyəcək. Çünki belə şəxsi keyfiyyətlərlə o, KTMT-də üzləşdiyi məğlubiyyətlə AİI-də də üzləşmək kimi taleyə sahib olacaq".

*Məhəmmədəli QƏRİBLİ*

# Köçəryan Paşinyana ilk açıq hədəsini etdi - "Səhv etmişəm, səni devirəcəyəm"

**Əvvəlcədən də gözlənildiyi kimi, azadlığa çıxdıqdan sonra Ermənistanın eks-prezidenti Robert Köçəryan baş nazir Nikol Paşinyana qarşı aktiv fəaliyyətə başlayıb. Hadisələrin gedişi göstərir ki, Köçəryan artıq Paşinyanı devirib yenidən iqtidara gəlməkdə maraqlıdır. Keçmiş prezident özü də bunu açıq şəkildə etiraf edir. Belə ki, tərəfdarları ilə görüşən Köçəryan yenidən hakimiyyətə gəlmək istədiyini deyib:**



"10 il əvvəl mənə elə gəlirdi ki, həyatımdakı əsas hadisələr geridə qalıb. Daha proqnozlaşdırıla bilən, rahat həyat məni gözləyir. Yanılmışam. Mən yenidən hakimiyyətə gəlmək niyyətindəyəm". O, həbsxananın onu yalnız fiziki baxımdan təcrid edə biləcəyini deyib: "Əksinə, məndə irəliyə getmək, mübarizə aparmaq üçün ciddi və yeni stimul yaranır. Mən şadam ki, bu mübarizəni tək aparmayacağımı görürəm. Mütləq irəliyə gedən, yeni qələbələr gətirən çox aktiv, maraqlı komanda var".

Məhz belə bir vaxtda Ermənistanın "Adekvad" təşkilatının mətbuat xidməti məlumatı yayıb ki, ölkədə yeni müxalif partiya yaradılıb. Təşkilat bundan sonra partiya olaraq fəaliyyət göstərəcəyini bildirib. Yeni partiya əsas hədəfinin çoxsəviyyəli, döyüş qabiliyyətli müdafiə infrastrukturu yaratmaq, müsbət demoqrafik dinamikaya nail olmaq, Ermənistan vətəndaşları üçün lazımi təhsilin verilməsini təmin etmək və ölkənin ümumi maraqlarının olduğu xarici subyektlərlə etibarlı münasibətlər yaratmaqdan ibarət olduğunu bildirib. Qeyd edək ki, "Adekvad" Paşinyan əleyhdarı və nisbətən də rusiyayönlü təşkilat kimi tanınır. Bir müddət əvvəl bu qurum məhz Köçəryanın həbsi, eləcə də Paşinyanın tərəfdarlarının məhkəmə binalarını tutmasına etiraz olaraq aksiya təşkil etməklə gündəmə gəlmişdi. Ermənistanın mediası isə bu təşkilatı məhz Köçəryanın maliyyələşdirdiyini iddia edir. İndi partiyaya çevrilən qurumun məhz Köçəryanın rəhbərliyi altında fəaliyyət göstərəcəyi bildirilir. O da vurğulanır ki, yeni partiya artıq ana müxalifət adına iddia edir. Onun əsas tərəfdarı qismində "Qarabağ klanı" çıxış edir. Həmçinin "Iragir.am" saytı qeyd edir ki, Köçəryan və tərəfdarlarına Rusiya tərəfindən də geniş dəstək veriləcək. Paşinyan hökumətinə yaxınlığı ilə seçilən sayt bunu həm də onunla əsaslandırır ki, Rusiyanın hədəfi Ermənistanda inqilabın uğur qazanmasına imkan verməməkdir: "Putin və Köçəryan təxminən eyni vaxtda hakimiyyətə gəliblər və Ermənistanda tez bir zamanda Putin modeli idarə sistemi qurulub. Bu sistem Köçəryanın prezident vəzifəsindən getməsindən sonra - Sarkisyanın idarəçiliyi dövründə də dəyişməyib. Sarkisyan prezident olsa da, bu onun sistemi deyildi. Ermənistanda hadisələr Köçəryan faktorunun iştirakı ilə inkişaf edirdi. Öz hakimiyyətini formalaşdırmaq imkanını Sarkisyan "Sasna Tsrer"in polis məntəqəsini ələ keçirməsindən sonra əldə etdi. Köçəryan o zaman 2017-ci ildəki parlament seçkisində iştirakdan hədər yerə imtina etmədi. 20 illik Rusiya-Ermənistan sxeminə bu cür son qoyuldu. Belə görünə bilərdi ki, Köçəryanın rolu artıq başa çatıb. İnqilabdan və Köçəryan ətrafındakı məşhur hadisələrdən sonra hansısa səfərbərliyin formalaşdırılmasına cəhdlər edilir. Rusiyanın Ermənistana münasibətdə siyasəti, başda kimin olmasından asılı olmayaraq, dəyişmir. Bu gün aydındır ki, Rusiyanın hədəfi Ermənistanda inqilabın uğur qazanmasına imkan verməməkdir. Bunun üçün Moskva yenidən Köçəryan üzərindən Paşinyana qarşı oyunlara start verib".

"Qraparak" qəzeti isə diqqəti buna yönəldir ik, sürətlə ətrafına qüvvələr cəmləyən Köçəryana həm də Serj Sarkisyanın sədri olduğu Respublika Partiyası hərtərəfli dəstək verməyə hazırdır. Qəzet bu fonda qeyd edir ki, son günlər Respublika Partiyasının mərkəzi ofisində ciddi aktivlik müşahidə edilir: "Serj Sarkisyan gecə yarısına qədər ofisdə qalır, onun yanına partiya yoldaşları gəlir. Respublika Partiyasının nümayəndəsi Vaqram Baqdasaryan respublikaçıların nümayəndələrindən kiminsə Robert Köçəryanla görüşməsini nə qədər inkar etsə də, məlumat var ki, bir neçə gün əvvəl Serj Sarkisyan eks-prezidentlə görüşüb. Bununla belə, Sarkisyanla Levon Ter-Petrosyanın da tez-tez görüş keçirməsi ilə bağlı məlumatlar yayılsa da, bu faktı hələlik yoxlamaq mümkün olmayıb". Beləliklə, hadisələrin gedişi Ermənistanda gərginliklərlə müşayiət ediləcək yeni qarşıdurmaya start verildyini göstərir. Bu xüsusda "Qarabağ klanı"nın fəaliyyəti artıq Paşinyan üçün ciddi problemə çevrilir. Ermənistanın "Past" nəşri isə yazır ki, təhlükə artarsa, Paşinyan "Qarabağ klanı"nı tam sıradan çıxarmaq üçün daha qəti şəkildə hərəkətə keçəcək və artıq bu xüsusda ilkin addımlar da atıb. Nəşr yazır ki, işğal altında olan Qarabağda Ermənistan hakim elitasının son dövr əlaqələri, "ermənistanlı", "qarabağlı" etiketləri ilə bağlı məlumatlar artıq Paşinyanı ciddi narahat edir: "Paşinyan ümumi informasiya sahəsində monitorinq keçirilməsi üçün hüquq-mühafizə orqanlarına təlimat verib. Bilmək istəyir ki, bu etiketlərin, xüsusiyyətlərin, bölünmələrin "küləyi haradan əsir" və həmin mövzuların spekulyasiyasında kimlər "yan-yanadır". Hazırkı vəziyyətin nümayiş etdirilməsi üçün manevr etmək mümkündür və Ermənistan hakimiyyəti bu mövzunun kəskinləşdirilməsinə meylli deyil. Vəziyyətin daha aydın şəkildə təsvir edilməsi üçün artıq Paşinyanın təlimatı ilə bu mövzunun dərin monitorinqinə başlanılıb. Əslində isə bütün bunlar "Qarabağ klanı"nın cəmiyyəti iki yerə bölmək istiqamətində fəaliyyətini dayandırmaq üçün Paşinyan tərəfindən atılan ilkin addımlardır". Nəşrin yaydığı məlumatda o da bildirilir ki, məhz bunlar fonunda Nikol Paşinyanın oğlu Aşotun işğal edilmiş Dağlıq Qarabağ ərazisindən İrəvana gətirilməsi də təsadüfi deyil. Hesab edilir ki, Paşinyan oğlunu "Qarabağ klanı"ndan qorumaq üçün belə bir addım atıb və bu da tərəflər arasında mübarizənin daha da kəskinləşəcəyinin daha bir göstəricisdir. Artıq Ermənistan Müdafiə Nazirliyi də faktı təsdiq edib. Məlumata görə, Paşinyanın oğlunu Qarabağdan İrəvanın Nubaraşen rayonundakı hərbi hissələrdən birinə köçürüblər. Nubaraşendə 2017-ci ilə qədər Ermənistan Silahlı Qüvvələrinin beşinci korpusu yerləşib.

Sonradan bu korpus Rusiya-Ermənistan birləşmiş qoşunlarının tərkibinə verilib. Elə "Past" nəşri də yazır ki, Paşinyanın oğlunu Qarabağdan Ermənistana aparması indiki məqamda diqqət çəkir və İrəvanla "Qarabağ klanı"nın çəkişməsinin daha da şiddətlənəcəyini təsdiqləyir.

*Tahir TAĞIYEV*

**Azərbaycanın UEFA Avropa Liqasının final oyununa uğurla evsahibliyi etməsi nəinki ölkə ictimaiyyəti, eləcə də beynəlxalq aləm tərəfindən olduqca müsbət göstərici kimi qeyd edilir. Heç şübhəsiz ki, bu, ölkəmizin 2020-ci ilin iyun ayında futbol üzrə Avropa çempionatının 4 oyununa da (üç qrup və bir 1/4 oyunu) çox yüksək səviyyədə evsahibliyi edəcəyini deməyə zəmin yaradır.**

# "Arsenal" - "Çelsi"dən sonra Azərbaycan 2020-də Avropa çempionatının da final oyunlarını uğurla keçirməyə kart-blanş aldı...

## *Aydın Bağırov: "... ölkəmizin qarşısında yeni perspektivlər açmaq baxımından çox əhəmiyyətlidir"*



*"Bu oyunun yüksək səviyyədə təşkili həm də 2020-ci ildə keçiriləcək Avropa çempionatından əvvəl bir sınaq, test kimi qiymətləndirilməlidir"*

Azərbaycanın UEFA Avropa Liqasının final oyununu bu şəkildə təşkil etməsi 2020-ci ildə futbol üzrə Avropa çempionatının da oyunlarının yüksək səviyyədə keçirilməsi üçün ölkəmiz qarşısında hansı perspektivlər açdı?

Ekspertlər hesab edirlər ki, ölkəmiz tərəfindən UEFA Avropa Liqasının final oyununun yüksək səviyyədə təşkil edilməsi ölkəmiz üçün yeni perspektivlər vəd edir. Onların fikrincə, bu amil 2020-ci ildə futbol üzrə Avropa çempionatının keçirilməsinə Azərbaycanın daha yüksək səviyyədə hazırlaşacağını deməyə əsas verir.

**"Qol.az" saytının baş redaktoru, tanınmış futbol şərhçisi Aydın Bağırov "Bakı-Xəbər"ə bildirdi ki, sözügedən final qarşılaşmasının ölkəmiz tərəfindən yüksək səviyyədə təşkil edilməsi Azərbaycanın bu sahədə qazandığı böyük təcrübənin təzahürüdür. A.Bağırov hesab edir ki, 2020-ci ildə keçiriləcək oyunlara Azərbaycan daha ciddi şəkildə hazırlaşmalıdır.** "Final qarşıdurmasının təşkili baxımından kiçik texniki halları çıxmaq şərtilə, oyuna hazırlığı müsbət qiymətləndirmək olar. Ölkəmiz ilk dəfə idi ki, bu cür böyük oyuna evsahibliyi edirdi. Təhlükəsizlik məsələsindən tutmuş, qonaqların qarşılanmasına, yerləşdirilməsinə və s. qədər hər şey yüksək səviyyədə idi. Bu oyunun yüksək səviyyədə təşkili həm də 2020-ci ildə keçiriləcək Avropa çempionatından əvvəl bir sınaq, test kimi qiymətləndirilməlidir. İnanıram ki, dövlət qurumları gələn ilə qədər müəyyən kiçik texniki məsələlərin həlli istiqamətində addımlar atacaqlar. Bu da hava reysləri ilə bağlı məsələdir. Amma Avropa çempionatının keçirilməsi belədir ki, ilin sonunda püşkatma olacaq və burada hansı ölkələrin komandalarının Azərbaycana gələcəyi də təxminən müəyyənləşəcək. Futbol üzrə Avropa çempionatına hazırlıq baxımından da bizim xeyli vaxtımız, zamanımız olacaq. Deyək ki, bu dəfə Avroliqa yarımfinalına iki ingilis komandasının gəlməsi iki həftə əvvəldən bilinirdisə, bu dəfə hansı ölkələrin komandalarının gələcəyi artıq bir neçə ay əvvəlcədən bilinəcək. Ona görə də Avropadan, dünyanın başqa ölkələrindən azarkeşlərin, tamaşaçıların da rahat gəlməsi üçün ümid edirəm ki, lazımi şərait yaradılcaq. Bu baxımdan, hesab edirəm ki, Azərbaycan Avroliqanın final oyununu izləyən tamaşaçıları yüksək səviyyədə qəbul etdiyi kimi, Avropa çempionatının oyunlarına baxmağa gələnləri də bu cür yüksək səviyyədə qəbul edəcək. Amma deyim ki, Avropa çempionatı oyunlarının məsuliyyəti daha böyükdür. Bu çempionata tamaşa etməyə gələn qonaqların sayı bu dəfəkindən çox-çox artıq olacaq. Yeni proqnozuma görə, gələn ilin yayında Bakıda 100 minə qədər əcnəbi qonaq olacaq. Onları qarşılamaq, qəbul etmək üçün hesab edirəm ki, dövlət qurumları tərəfindən yüksək səviyyəli işlər görüləcək. Avropa çempionatı oyunlarının Bakıda keçirilməsi ölkəmizin qarşısında yeni perspektivlər açmaq baxımından çox əhəmiyyətlidir və bu onu göstərir ki, Azərbaycan daha yüksək səviyyəli futbol tədbirlərini keçirməyə qadirdir. Bilirsiniz ki, bəzi dairələr Avropa Çempionlar Liqasının Bakıda keçirilən final qarşılaşmasında hansısa nöqsanların, qüsurların olacağını iddia edirdilər, hətta təhlükəsizlik məsələsi barədə də neqativ fikirlər səsləndirilirdi. Təbii ki, bunlar hamısı heç bir əsası olmayan fikirlər idi. Oyunun uğurla keçirilməsi də bu cür qüvvələrin qarayaxmalarının əsassız olduğunu bir daha ortaya qoydu".

A.Bağırov bildirdi ki, Azərbaycan xalqının qonaqpərvərliyi xarici qonaqların olduqca xoşuna gəlib. Xalqımız matçı izləməyə gələn əcnəbilərə çox yüksək səviyyəli qonaqpərvərlik örnəyi təqdim etdi. "Mən burada xüsusi bir detalı qeyd etmək istəyirəm. Keçən il Kiyevdə Çempionlar Liqasının final oyunu keçirilmişdi. Final zamanı və ondan sonra da Kiyev şəhəri ilə bağlı kifayət qədər narazılıqlar, şikayətlər vardı. Hətta UEFA-nın prezidenti də qeyd etmişdi ki, final oyununa görə Kiyevdə süni qiymət artımı olub. Otellərdə yer olmadığından, hətta qonaqlara hansısa maşın qarajlarında yerlər təklif olunurdu və o yerlərə 100-200 avro civarında qiymətlər qoyulmuşdu. Bu, UEFA-nı da, azarkeşləri də şoka salırdı ki, bu dərəcədə qiymət artımı ola bilməz. Müşahidə etdim ki, Azərbaycanda belə şeylər olmadı, yəni qiymətlərdə heç bir dəyişiklik baş vermədi. Hesab edirəm ki, bu çox yaxşı haldır və bizim xalqın qonaqpərvərliyinin və istiqanlılığının göstəricisidir" - deyə A.Bağırov qeyd etdi.

***İradə SARIYEVA***

---

**Rusiyanın MKRU saytının müxbiri Aleksey Lebedev "Liverpul"un baş məşqçisi, alman mənşəli Yurgen Kloppun Avroliqanın "Arsenal" və "Çelsi" Britaniya klubları arasında final oyununun Bakıda keçirilməsinə göstərdiyi mənfi münasibətə cavab olaraq maraqlı yazı ilə çıxış edib. Həmin yazının tərcümə variantını oxucularımıza təqdim edirik.**

# "Bakıda final - bu məzəlidir" - deyən Yurgen Klopp nədə haqlı deyil...



"Bakıda Final oyunu keçirmək çox məzəlidir. Mən bilmirəm bu uşaqlar səhər yeməyində nə yeyiblər ki, belə bir qərar qəbul ediblər"...

Bu sözləri "Liverpul"un baş məşqçisi, alman mənşəli Yurgen Klopp Avroliqanın "Arsenal" və "Çelsi" Britaniya klubları arasında final oyununun Bakıda keçirilməsini şərh edərkən deyib. Lakin Klopp mənim hazırda ən çox dəyər verdiyim məşqçi olsa da deməliyəm ki, o bu fikrində haqlı deyil. Birincisi, Çempionlar Liqasının bu yaxınlarda Kiyevdə keçirilən final oyununu xatırlayaraq deyir ki, bu çox pis ənənədir və Avropanın bu hissəsindən komandalar "istənilən halda ora gedib çıxmayacaq". Əgər bu alman mənşəli şəxs keçmiş Sovetlər İttifaqını nəzərdə tutursa - əsas turnirdə olmasa da, Rusiya və Ukrayna komandaları XXI əsrdə həlledici matçda oynayıblar. Hətta qənimət də götürüblər - Moskvanın MOİK-i də, Piterin "Zenit"i də, Donetskin "Şaxtyor"u da. Siz deyin, bu çoxdanmı baş verib? Bu ki əladır, və Klopp burda ikiqat haqsızdır. Çünki neytrallıq prinsipi əsasdır. Görəsən, şənbə günü Madriddə Çempionlar Liqasının finalında "Liverpul" "Atletik" və ya "Real"la üz-üzə gəlsəydi o nə deyəcəkdi? Fikrimcə, Rusiya Kubokunun təşkilatçısı olan Rusiya Futbol İttifaqı 2019-un həlledici görüşünü Samaraya təyin etməklə müdriklik göstərib. Əks halda Moskvada "Lokomotiv"ə qarşı oynamaq Yekaterinburqun "Ural"ına haqsızlıq olardı.

Baha başa gələr? Bu nə zəman həqiqi fanatlar üçün əngəl olub? Yoxsa (bu da üçüncüsü) Dünya Kuboku üçün Yaponiyaya getmək daha ucuz başa gələcəkdi?

Dördüncüsü isə, əminəm ki, hörmətli alman məşqçini ingilis və və ümumilikdə, bəlkə də Qərbi Avropanın zehniyyətində oturuşmuş stereotiplər idarə edir, yəni oralarda yoxsulluq var, irqçilik var və s. Məsələ, hətta Rusiyada 2018-ci il Dünya Kubokuna qədər hakim olan siyasi tərkibdə də deyil. Nəticədə, eyni qorxu (bəlkə bir az daha kiçik miqyaslı) Avro-2012-də ukraynalılar qarşısında İngilis azarkeşlərdə də vardı...

Əslində mən yaxınlarda Bakıda olmuş bir insan kimi sizi əmin edə bilərəm: bu, dünyanın ən təhlükəsiz, ən qonaqpərvər və gözəl mətbəxi olan şəhərlərindən biridir. Heç bir İslam fanatizmi yoxdur, azı Rusiyada olduğu qədər sizə içki süzəcəklər. Buna görə də hələlik şübhə içində olan britaniyalılara (elə öz həmvətənlərimizə də) tövsiyə edərdim: bütün işgücünüzü atıb Bakıya gedin. Əks halda London derbisini və "Brilyant əl" filmində Yuri Nikulinin yıxılaraq "çort poberi" (lənət şeytana) dediyi məkanı nə vaxt görəcəksiniz?

# Prezident enerji sektorunda özəl biznesə rəsmən investisiya yatırmaq imkanı açdı...



*Fikrət Yusifov: "Ölkəyə daha çox valyuta daxil olması üçün energetika sektoruna investisiyanın yatırılması vacibdir"*

*Aydın Hüseynov: "Azərbaycanın enerji sahəsinə həm yerli, həm də xarici investorlar maliyyə yatırmağa maraq göstərir və göstərəcəklər"*

**Məlum olduğu kimi, Prezident İlham Əliyev Azərbaycanın energetika sektorunda islahatların sürətləndirilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, Energetika Nazirliyi qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla, energetika sektorunun inkişafının əsas prioritetləri və hədəfləri müəyyən edilməklə "Azərbaycan Respublikasının energetika sektorunun uzunmüddətli İnkişaf Strategiyası"nın layihəsini on iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidir. Həmçinin, ölkənin elektroenergetika sisteminin səmərəliliyinin artırılması məqsədilə bu sahəyə özəl investisiyaların cəlb edilməsi barədə təkliflərini Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi ilə razılaşdırmaqla altı ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidir.

Bərpa olunan enerji mənbələrindən istifadənin təşviq edilməsi, bu sahədə əlverişli investisiya mühitinin yaradılması və özəl sahibkarlıq fəaliyyətinin dəstəklənməsi tədbirlərinə dair təkliflərini hazırlayıb dörd ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidir.

**Energetika sektoruna özəl investisiyanın yatırılmasının əhəmiyyəti barəsində danışan millət vəkili Aydın Hüseynov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, neft strategiyası ölkə başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir:** "Azərbaycanın enerji sektorunda uğur qazanmasının səbəblərindən biri ölkəmizin mühüm tərəfdaş olmasıdır. Xatırladım ki, Azərbaycan tərəfi üzərinə götürdüyü bütün öhdəlikləri uğurla icra edib".

**Millət vəkili onu da vurğuladı ki, enerji sektoruna investisiyanın yatırılması qeyri-neft sənayesinin inkişaf etməsinə səbəb olacaq. A.Hüseynov hesab edir ki, Azərbaycanın enerji sahəsinə həm yerli, həm də xarici investorlar maliyyə yatırmağa maraq göstərir və göstərəcəklər:**

"Nəzərə almaq lazımdır ki, böyük enerji şirkətlərinin Azərbaycana sərmayə yatırması ilk növbədə ölkəmizdəki siyasi sabitlik və təhlükəsizlik amili ilə bağlıdır".

**İqtisadçı-ekspert Fikrət Yusifovun sözlərinə görə, sevindirici haldır ki, artıq Azərbaycan enerji idxal edən ölkədən enerji ixrac edən ölkəyə çevrilib. Elektrik enerjisi bir sıra xarici ölkələrə ixrac olunur: "Bu baxımdan energetika sektoruna özəl investisiyanın yatırılması qeyd olunan sektorun inkişaf etməsinə səbəb ola bilər".**

İqtisadçı onu da vurğuladı ki, ölkəyə daha çox valyuta daxil olması üçün energetika sektoruna investisiyanın yatırılması vacibdir. Bu sahənin inkişafı ölkəyə daxil olacaq valyutanın həcmini artıracaq.

*Günel CƏLİLOVA*

# "ParaBokt"a qarşı ittiham - bank olmayan kredit təşkilatı müştərinin qızıllarını qaytarmamaqda günahlandırılır...

**Son illər Azərbaycanda fəaliyyət göstərən bank olmayan kredit təşkilatlarının sayı kifayət qədər çoxalıb. Hər addımda "daha aşağı faizlə lombard krediti" elanına rast gəlirik. Bankların bağlanması və ya digərlərinin kredit şərtlərini çətinləşdirməsi də sözügedən sahəyə marağı artırmağa başladı.**



*"ParaBokt" - Ruslan Quliyev: "Bu, daxili sirr olduğu üçün..."*

*Rəşad Həsənov: "Kredit təşkilatı vəsait cəlb edərkən qəbul etdiyi girovu ötürücü formasında digər kredit təşkilatları qarşısında girov kimi təqdim edir"*

Əlavə sənəd və iş yerindən arayış tələb olunmadığından, bank olmayan kredit təşkilatlarına müraciət edənlərin sayı artıb. Ancaq bəzi hallarda vətəndaşlar bank olmayan kredit təşkilatlarına kredit götürmək üçün girov qoyduqları qızıl-zinət əşyalarını geri almaqda çətinlik çəkirlər.

Belə bir hadisə bu günlərdə Məmmədova Yaqut Əlyusub qızının başına gəlib. O qeyd edir ki, "ParaBokt"dan kredit götürüb, əvəzində isə qızıllarını girov qoyub. Krediti ödəyib bitirsə də, "ParaBokt" onun zinət əşyalarını geri qaytarmır: "Mən 28 noyabr 2017-ci il tarixdə Sumqayıt şəhərində "ParaBokt"dan qızıllarımın girov qoyulması müqabilində kredit götürmüşəm. 23 may 2019-cu il tarixində kredit borcumu vaxtından əvvəl bağlamışam. Buna baxmayaraq, qızıllarımı hələ də geri ala bilmirəm. Səbəbini soruşanda konkret məlumat verilmir. Gah deyilir inkassator səhvən aparıb Tovuz filialına, gah da deyilir ki, sizin qızıllar baş ofisdədir. Deyirəm gedim özüm baş ofisinizdən qızılımı götürüm, deyirlər olmaz, sizə verilməyəcək. Nə özləri gətirir, nə də imkan vermirlər özüm götürüm baş ofislərindən. Bununla bağlı dəfələrlə "ParaBokt"un "qaynar xətt"inə zəng vursam da, heç bir məlumat verilmədi.

Əminəm ki, mənim kimi digər vətəndaşların da başına belə oyunlar çox açılıb. Əgər belə halların qarşısı müvafiq orqanlar tərəfindən vaxtında alınmasa, nəticələri çox ağır olacaq".

**"ParaBokt" bank olmayan kredit təşkilatının Problemli kreditlər şöbəsinin nümayəndəsi Ruslan Quliyev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki,** bu, daxili sirr olduğu üçün, bu barədə heç bir məlumat verə bilməzlər.

**İqtisadçı-ekspert Rəşad Həsənov bildirdi ki, müştəri ilə kredit təşkilatı arasındakı münasibət müqavilə şərtlərinə uyğun olaraq həyata keçirilməlidir:** "Bank olmayan kredit təşkilatı və ya digər kredit təşkilatları müqavilə şərtlərinə riayət etməsə, tərəflər məhkəməyə müraciət edə bilər. Vətəndaşlar kredit təşkilatının müqavilənin şərtlərinə riayət etməməsi ilə bağlı məhkəməyə müraciət edə bilər".

Həmsöhbətimiz onu da vurğuladı ki, kredit təşkilatı vəsait cəlb edərkən qəbul etdiyi girovu ötürücü formasında digər kredit təşkilatları qarşısında girov kimi təqdim edir. Belə olduğu halda, sözügedən girov başqa bir kredit təşkilatının sərəncamında olur. Müddət bitəndən sonra zinət əşyası kredit təşkilatına qaytarılır, daha sonra isə girov kredit götürən şəxsə geri qaytarılır.

**Təbii ki, bu vəziyyətin vətəndaşa heç bir aidiyyəti yoxdur. Girov qoyduğu əmlakı geri ala bilmədikdə vətəndaş məhkəməyə müraciət edə bilər.**

*Günel CƏLİLOVA*

# Göyçə gölünün qanlı suları...

**Yeni Bəyazid qəzasının Basarkeçər nahiyəsi bütünlüklə 36 müsəlman-türk kəndindən ibarət olmaqla Şahdağ silsiləsi ilə Göyçə gölü arasında yerləşir. Bu dağlığın qərb hissəsində, Göyçə gölündən 5 km aralı gündoğara sarı Dilican-Basarkeçər avtomobil yolu üzərində yerləşən Şişqaya kəndi Qoca dağın ətəklərindən 1 km aralıda, quzeydəki Maral və Qara dağları arasında hündürlüyü 15-20 metrə çatan sərt qayalığın adından ünvanlanıb, ərazidə "Kosa tülləyi" yüksəkliyi də ucalırdı.**

Bu qayanın dibindən Sona bulağı (bulağı üzə çıxaran qızın adını daşıyır), Maral bulağı axırdı. Qoca dağla Savzılı dərənin (soğanaqlı göy otlar yığılan yer, ondan qutab bişirirdilər) arasında Buzbulaq qaynayırdı. Qonşu Gədəbəy rayonunun Qala kəndi ilə 30 km məsafəsi vardı Şişqaya kəndinin.

Göyçə gölünün ətrafında (qərb hissədə Çəmbərək nahiyəsi adlanıb, sonralar haylar oraya Krasnoselsk deyib, cənubdakı Kəvər nahiyəsi isə Martuni adlanıb) qədim oğuz-türk elatlarının qurduğu əski yurd-ocaq obaları əsrlər və minilliklər boyu yağı hay kilsəsinin və onun azğınlaşmış quldur dəstələrinin hədəfində olduğundan, 1905-1920-ci illərin qanlı-qadalı hadisələri bu yerlərdən faciəsiz ötüşməyib. Minlərlə günahsız dinc müsəlman-türk ailəsi A.Ozanyanın, Q.Njdenin, D.Kanayanın başıpozuq dəstələrinin törətdiyi qətliam-soyqırım qurbanlarına çevrilib, müqəddəs Şəhid qanları ulu Göyçə sularına qarışıb.

Bölgənin Hacı Qərib kəndi (30-40 ev vardı) mənfur düşmənin qanlı basqınlarından sonra yer üzündən tamam silindi, qiymətli tarixi-maddi nümunələr (qədim alban qəbirləri, yazılı daş lövhələri) və evlər qarət edildi, həyətlərə od vuruldu, əhalinin yarısı qətlə yetirildi, yarısı isə qonşu kəndlərə pənah apardı.

Basarkeçər nahiyəsinin kəndlərinə hücumlar əsasən hay quldurları yaşayan Tüstülü, Qırxbulaq, Zağa, Böyük Məzrə, Gödəkbulaq... kəndlərindən edilib. Əsas qərargah İrəvan şəhərində və Basarkeçər nahiyəsində yerləşdiyindən, o dəstələrə Silikov soyadlı rus başçılıq edirdi. 1918-ci ildə Şişqaya kəndində 300 ev olub, bu kənddən doğuya sarı, Gilli çayın sahilində Zod kəndi (200 ev) yerləşirdi ki, bu kəndə gəlib çatan Silikov burda öldürülmüşdü. 1919-cu ilin aprel ayında Şişqaya kəndinə edilən hücum nəticəsində kənddən 4-5 km cənubda, Göyçə gölünün sahilindəki Ağkilsə alban məbədi yandırılaraq dağıdılıb, əski işarəli-yazılı qəbir daşları düşmənlər tərəfindən aparılıb. Yerli müqavimət dəstələrini kəndin yüzbaşısı kor Tanrıverdi Tüstülü (1843-1928), kəndin axundu Molla İbrahim İbrahim oğlu (1852-1932) təşkil edib, bu dəstənin sıralarında Seyid Abuzər (1855-1924) kimi igidlər mərdliklə vuruşub, döyüşlər əsasən əlbəyaxa savaşlarla olub.

...Hay quldurları kəndin ortasında, "Orta yol" deyilən yerdə topu quraşdırmaq istədikdə Seyid Abuzər atın belində əlində qılınc onların üstünə necə sığıyıbsa, haylar topu qoyub qaçmağa məcbur olublar. Kənd camaatı uzun müddət o topa yaxın düşə bilməyib, çünki onunla davrana bilməyiblər... Amma haylar sonradan deyiblər ki, türklər kor-koranə, boş əllə bizə üstün gəldilər...

Hay kilsəsinin keşişləri kənd ağsaqqallarını aldadaraq, barışıq məqsədilə əhalini Əziz Didarlının evinə yığıblar, əsasən əli silah tutanları. Qapıda da iki silahlı hay qulduru keşik çəkirmiş. İçəridən sakinləri iki-iki aparıb kənarda qətlə yetirib qayıdırlarmış. Bu qanlı tələdən xəbər tutanlar hayların əlindən silahı ala bilsələr də, ətrafda pusqu quranların atəşindən canını qurtara bilməyib, nəticədə 60-a qədər çavanı yandıraraq məhv ediblər. O meyitlərin içərisində sağ qalan Kamal Nəzər oğlu (1865-1939) deyirmiş ki, haylar süngüləri ilə meyitlərə işgəncələr verirmiş, sağ qalan olmasın deyə. Onlar evləri qarət edib, malheyvanları sürüb aparıblar. Düşmən caynağından qurtulan Kamal 18-20 km aralıda olan (şimal-qərbə tərəf) Pəmbək kəndinə sığınıb, at arabası-furqonla yol alan əhali məcbur qalıb ki, dağlarda, meşələrdə yataqlansın.



Oxşar hadisə 1919-cu ildə də olub. Basarkeçər nahiyəsində hay keşişlərinin müsəlman-türk əhalisinə barışıq təklifinin sonluğu yenə də faciəvi, qanlı qurtarıb. Həmin "barışıqda" iştirak edən daşkəndli aşıq Nəcəf Allahverdi oğlu Bayramovun (1876-1919, Aşıq Ələsgərin (1821-1926) şəyirdi, el arasında Nəcəf Daşkəndli adlanıb) kürəyinə "Küllü təpə" deyilən yerdə samovar bağlayıb qaynadıblar və onu oxumağa məcbur ediblər... Aşıq Nəcəf Şəmistan, Şəmiddin, Mikayıl, Astan və Mikayıl adlı oğlanları ilə birlikdə yandırılaraq qətlə yetirilib.

Daşkənd kəndi Basarkeçər nahiyəsindən 7-8 km aralıda cənubda yerləşir. Bu qanlı olayların şahidləri sırasında Şişqaya kənd sakinlərindən aşıq Rəhim Cəfər oğlu (1858-1946), Teymur Hüseynalı oğlu (1865-1948), Savad Məhəmməd qızı (1895-1979)... olub və onların bu barədə söhbətləri həmişə eşidilib.

Yaşlı saknilərin dediyinə görə, 1905-1907-ci illərdə nahiyənin Şişqaya, Gödəkbulaq, Kərkibaşı, Qanlıkənd, Kiçik Məzrə, Böyük Məzrə, Zod (bu kənd Kəlbəcərin Yanşaq kəndi ilə qonşudur)... kəndlərinin əhalisi Kəlbəcər və Gədəbəy nahiyələrinin kəndlərinə (Zod aşırımından) üz tutduqlarından o dövrdə qırğınlardan qurtulmaq mümkün olsa da, 1918-1920-ci illərdə düşmən təcavüzü qansız-qadasız ötüşməyib.

Gödəkbulaq kəndinin adı 1976-cı ildə dəyişdirilərək ermənicə eyni mənanı verən "Qarcaxbur" adlandırılıb. 1918-ci ildə bu kənddə 150 ev olub. Keçən əsrin 30-40-cı illərində bu kənddə ermənilər kütləvi şəkildə məskunlaşdırılıb. Kəndin şərq hissəsində, 100 m aralıda qayalıq yer vardı, hamar daş parçasının üzərində hay dilində yazı cızılmışdı, həmin daş parçası dəmir çərçivəyə alınmışdı, üstünə gül dəstələri qoyulurdu teztez. Guya Osmanlı Türk Ordusunun əsgərləri burada 5 sulahlı quldur qardaşı qətlə yetirib və bu yer həmişə məktəblilər tərəfindən yad edilirdi.

Göyçə gölünün ətrafındakı Qanlı (100 ev) və Kərkibaşı (200 ev, bu kənd aşıq Alı Mirzə oğlunun (1801-1911) ustadı Ağ Aşıq Allahverdinin (1754-1860) doğma yurdudur) kəndlərində 1918-1920-ci illərdə dəhşətli qırğınlar baş verib, bu faciəvi hadisələr Göysu kəndinin, nahiyə mərkəzindən 4 km aralıda yerləşən Hüseynquluağı obasının sonu ilə nəticələnib.

Əsrin ilk onilliklərində hay silahlılarının xalqımıza qarşı törətdiyi vəhşiliyi unutmayan yerli sakinlər onları "can-fəda" ("can alan" mənasında) adlandırıb.

Osmanlı Türkiyəsinin IV Ordusunun Musa Qarabəkir paşanın başçılığı ilə Basarkeçər nahiyəsinə daxil olan bölmələri Şişqaya kəndində qərarlaşıb, bu kənddə düşərgə qurub. Ən ağır döyüşlər də məhz bu kənddə baş verib. ...

1976-1977-cı illərdə Basarkeçər rayon Partiya Komitəsinin I katibi Aşot Nurğanyanın gördüyü əsas işlər Şişqaya, Hacı Qərib, Kəsəmən kəndləri ətrafındakı Alban mədəniyyətinə aid tarixi-maddi nümunələri söküb-dağıdıb harayasa daşıtdırmaq olub. Daha sonra,1979-cu ildə Basarkeçər rayon xəstəxanasının "travmatologiya şöbəsi"nin müdiri Ağvan Nersesyan öz dindaşlarına söhbət edib ki, 1918-1920-ci illərdə öldürülən ermənilərin qisasını Böyük Məzrə, Kiçik Məzrə, Şişqaya, Zod, Kəsəmən...kəndlərinin əhalisi (xəstələnənləri) hesabına alıb, ən azı 80 müsəlman-türk öldürüb... O illərdə bu "cərrah daşnakın" 50 yaşı vardı.

Acı həqiqət olsa da, ibrət götürməyin vaxtıdır...

***Qismət YUNUSOĞLU***
***Bakı Dövlət Universitetinin müəllimi***

**1988-ci ildən başlayaraq Ermənistanın təcavüzünə qarşı döyüşlərdə itkin düşmüş şəxslərlə bağlı Dövlət Komissiyası və Respublika Xatirə Kitabının birgə böyük həcmli və tarixi əhəmiyyətli işinin bir hissəsi yenicə yekunlaşıb. Minlərlə Azərbaycan vətəndaşının itkin düşdüyü ana qədərki həyat yolunu özündə əks etdirən dörd cildlik xüsusi buraxılışın ilk cildi artıq çapdan çıxıb. İlk cilddə 922 nəfər gənc, yaşlı qadın, kişi və uşaqlardan ibarət Azərbaycan vətəndaşı barədə məlumatlar yer alıb. Geniş oxucu marağını nəzərə alaraq, həmin nakam soydaşlarımızın bir neçəsi barədə məlumatı gündəlik olaraq yenidən sıra ilə təqdim etməyi qərara aldıq. Daha ətraflı məlumatı Xatirə Kitabının www.xatirekitabi.az saytından əldə edə bilərsiniz. Beləliklə, sözügedən nəşrdə yer alan itkin soydaşlarımızla bağlı məlumatları diqqətinizə çatdırırıq:**

# Ermənistanın Azərbaycana təcavüzü nəticəsində itkin düşmüş soydaşlarımız unudulmayacaq...

**(Əvvəli ötən saylarımızda)**

**BAĞIROV BABƏK XANAĞA oğlu**



22 iyul 1973-cü ildə Azərbaycan Respublikasının Abşeron rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Abşeron rayonunun Saray qəsəbəsində yaşamışdır. Abşeron RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Bağırov Babək Xanağa oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 29 sentyabr 1992-ci ildə Ağdam rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Bağırov Babək Xanağa oğlu 29 sentyabr 1992-ci il tarixində Ağdam rayonunun Sırxavənd kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı yaralı vəziyyətdə döyüş bölgəsində qalaraq naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Bağırov Babək Xanağa oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BAĞIROV BALƏDDİN YUSİF oğlu**



19 noyabr 1972-ci ildə Azərbaycan Respublikasının Yardımlı rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Yardımlı rayonunun Porsova kəndində yaşamışdır. Yardımlı RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Bağırov Baləddin Yusif oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 18 sentyabr 1992-ci ildə Xocalı rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Bağırov Baləddin Yusif oğlu 18 sentyabr 1992-ci il tarixində Xocalı rayonunun Xramort (indi Pirlər) kəndi ərazisindəki Fərrux yüksəkliyində erməni erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Bağırov Baləddin Yusif oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BAĞIROV CAVANŞİR ADİL oğlu**



17 oktyabr 1961-ci ildə Azərbaycan Respublikasının Bakı şəhərində doğulmuşdur. Hərbi xidmətə qədər Bakı şəhərinin Xətai rayonunda yaşamışdır. Xətai RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Bağırov Cavanşir Adil oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 5 fevral 1994-cü ildə Kəlbəcər rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Bağırov Cavanşir Adil oğlu 5 fevral 1994-cü il tarixində Kəlbəcər rayonu ərazisində Murovdağ istiqamətində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Bağırov Cavanşir Adil oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BAĞIROV CƏBRAYIL DAVUD oğlu**



29 mart 1972-ci ildə Azərbaycan Respublikasının Neftçala rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Neftçala rayon mərkəzində yaşamışdır. Neftçala RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Bağırov Cəbrayıl Davud oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 27 sentyabr 1992-ci ildə Ağdərə rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Bağırov Cəbrayıl Davud oğlu 27 sentyabr 1992-ci il tarixində Ağdərə rayonu ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Bağırov Cəbrayıl Davud oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**(Ardı növbəti sayımızda)**

**Hər gün Azərbaycanın bu və ya digər rayonunda kriminal insidentlərlə bağlı məlumat alırıq. Bölgələrdə müxtəlif növ cinayət hadisələrinin qeydə alınması ilə bağlı kütləvi informasiya vasitələrində informasiya yayılır. Maraqlıdır, Azərbaycanın ən çox və ən az cinayət baş verən rayonu hansıdır?**

# Azərbaycanda ən çox və ən az cinayət baş verən rayonlar - eyni ölkədə fərqlilik nəyin nəticəsidir?



*"Naxçıvan, Xızı, Oğuz və Naftalanda demoqrafik quruluş baxımından kriminogen durum üçün zəmin mövcud deyil"*

Daxili İşlər Nazirliyinin rəsmi məlumatı əsasında ən kriminal rayonların siyahısı hazırlanıb. Daxili İşlər Nazirliyinin 2019-cu il yanvar ayında verdiyi rəsmi məlumata görə, 2018-ci ildə əməliyyat-axtarış və istintaq fəaliyyətini həyata keçirən bütün dövlət orqanları üzrə 26381 cinayət qeydə alınıb, onların 84,7 faizinin açılması təmin olunub. Bu cinayətlərin 92,4 faizi daxili işlər və prokurorluq orqanlarının səlahiyyətləri çərçivəsində istintaqı və təhqiqatı

## ***Şəmsəddin Əliyev:*** *"Ağır cinayətlər əsasən əhalinin sıx olduğu bölgələrdə baş verir"*

aparılan hüquqazidd əməllər olmaqla, onların 89,7 faizini böyük ictimai təhlükə törətməyən və az ağır növlər təşkil edib.

Dövlət Statistika Komitəsinin açıqladığı hesabatda qeyd olunur ki, 2017-ci il ölkədə 26 min 916 cinayət hadisəsi qeydə alınıb və qeydə alınan cinayət hadisələrinin təxminən yarısı - 12 min 693-ü Bakı şəhərinin payına düşüb.

Ümumiyyətlə, Naxçıvan Muxtar Respublikasına daxil olan rayonlarda qeydə alınan cinayət hadisələrinin sayı minimum səviyyədə olub. Muxtar Respublikada ən çox cinayət hadisəsi Naxçıvan şəhərində qeydə alınıb - 10 hadisə.

Rayonlar üzrə qeydə alınan cinayət hadisələrinin sayı bölgələr üzrə fərqlidir. Ən çox cinayət Bakıda qeydə alınıb. Bakı üzrə ən çox cinayət Xətai rayonunda qeydə alınıb. Adıçəkilən rayonda 1554 cinayət hadisəsi baş verib. Ən az isə Pirallahı rayonunda qeydə alınıb. Pirallahıda 59 cinayət hadisəsi yaşanıb.

Bölgələr üzrə isə ən çox cinayət Sumqayıt şəhərində baş verib. Ən az isə Naxçıvan MR, Xızı, Naftalan və Oğuz rayonlarında qeydə alınıb.

Maraqlıdır, eyni ölkədə kriminogen durumun bölgələr arasında fərqli formada qeydə alınmasının səbəbi nə ilə bağlıdır?

**"Polisə Dəstək" İctimai Birliyinin sədri Şəmsəddin Əliyev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, bölgələr arasında kriminogen vəziyyət fərqli formada dəyişir. Bunun da məlum səbəbləri var:** "Son zamanlar mediada zorakılığa çağırışlarla bağlı dərc olunan yazılar, video və fotosüjetlər yayımlanması gənclərin düşüncəsinə təsir edir. Eyni zamanda, kriminal aləmin nüfuzlu şəxslərinin cəmiyyətə qəhrəman kimi təqdim olunması gənclərin psixologiyasına təsir edir. Bu kimi faktlar cinayət aləminin genişlənməsinə səbəb olur".

Həmsöhbətimiz onu da vurğuladı ki, cinayət hadisələrinin daha çox qeydə alındığı bölgələrin adı ictimaiyyətə açıqlanıb: "Elə yerlər var ki, orada demoqrafik quruluş digər bölgələrlə müqayisədə fərqlidir. Məsələn, Bakı şəhərində əhalinin çoxluğu baxımından digər bölgələrlə müqayisədə kriminogen durum seçilir. Ancaq Naxçıvan, Xızı, Oğuz və digər bölgələrdə demoqrafik quruluş baxımından kriminogen durum üçün zəmin mövcud deyil. Bu bölgələrdə əsasən xırda xuliqanlıq, oğurluq hadisəsi qeydə alına bilər. Ağır cinayətlər əsasən əhalinin sıx olduğu bölgələrdə baş verir".

***Günel CƏLİLOVA***

№ 96 (3994) ■ Qiyməti: 50 qəpik

# BAKI XƏBƏR

31 MAY 2019-cu il

www.baki-xeber.com

# "Azercell" Bakıda futbol azarkeşlərini yüksək sürətli internetlə təmin etdi

**Azərbaycanın aparıcı mobil rabitə xidmətləri təminatçısı "Azercell" və "Ericsson" (NASDAQ: ERIC) ölkə paytaxtında yerləşən Bakı Olimpiya Stadionunda radio giriş şəbəkəsi (RAN) və transmissiya şəbəkəsini modernləşdirdi. Stadion çoxstandartlı "Ericsson" Radio Sistemi avadanlıqları, o cümlədən, transmissiya və Elastik RAN funksionallığı ilə daha sıx təmin olundu.**

"Ericsson"nun bu həlli 74 radio sektorundan ibarət geniş şəbəkəyə vahid baza stansiyası şəklində işləməyə, beləliklə də resursların idarə olunmasını optimallaşdırmağa və istifadəçi rahatlığını artırmağa imkan verdi.

Unikal "Ericsson" Radio Sistemi həlli "Azercell"in genişzolaqlı mobil internet tutumunu üçqat artıraraq, azarkeşlərə oyunlar zamanı öz smartfonları vasitəsilə yüksək keyfiyyətli video yayımı aparmağa, interaktiv rabitə xidmətlərindən və sosial şəbəkələrdən faydalanmağa imkan yaratdı.

"Azercell" son illərdə mobil internet istifadəçilərinin davranışlarında əhəmiyyətli dəyişikliklərin baş verdiyini müşahidə edib. Belə ki, istifadəçilərin böyük qismi şəkil çəkdirməkdən daha çox video qeydləri aparmağa üstünlük verir. 2014-cü ildə Braziliyada keçirilən Dünya Çempionatı smartfon istifadəçilərinin daha çox öz şəkillərini paylaşdığı və tamaşaçıların 60 faizinin keçirilən oyunlarla bağlı şəkillər yüklədiyi "selfie" tədbiri olub.

* "Ericsson"nun "Elastic RAN" (E-RAN) şəbəkəsi ilə sonsuz sayda telefon bütün şəbəkə üzrə koordinasiya edilir və istifadəçinin yerləşdiyi yerdən asılı olmayaraq, şəbəkə əməliyyatlarının həyata keçirilməsi üçün çeviklik təmin olunur. Mobil şəbəkə daşıyıcılarının koordinasiyası və bir yerə cəmlənməsi internet sürətini və ümumilikdə şəbəkənin fəaliyyətini artırır. Məlumatları yollamaq üçün interfeyslər və E-RAN üçün lazım olan aşağı yubanma dərəcəsini təmin etmək üçün məlumat transmissiya həlli "Ericsson Router 6000" məhsullarından istifadə etməklə hazırlandı. Stadion şəbəkəsi mərkəzləşdirilmiş RAN prinsipi əsasında və yüksək göstəricilərə malik və etibarlı DWDM əsaslı optik şəbəkə infrastrukturundan ("Ericsson Fronthaul 6000" məhsulları əsasında) istifadə etməklə qurulub. Bu da, öz növbəsində, "Azercell"ə etibarlı və bazarda ən yaxşı mobil yayım xidmətləri təqdim etməyə imkan verdi.

* "Azercell" şirkətinin prezidenti Vahid Mürsəliyev bildirib: "Bu gün rabitə insanları, ölkələri və cəmiyyətləri bir-birinə daha da yaxın edir. Bu xüsusi hadisə zamanı bizim üçün bir nömrəli prioritet öz abunəçilərimizə, yerli və əcnəbi futbol azarkeşlərinə, qonaqlara oyundan zövq almaq, bu inanılmaz tədbirlə bağlı yaşadıqları emosiyaları və təəssüratları paylaşmaqlarına imkan yaratmaq olub. "Azercell" adından mən bizim dəyərli tərəfdaş olan "Ericsson" şirkətinə məkanı ən son şəbəkə həlləri ilə təchiz etməyə imkan verən öz beynəlxalq təcrübələrini bizimlə bölüşdüklərinə görə təşəkkür edirəm".

* "Azercell ilə əməkdaşlıq etmək, azərbaycanlı və xarici futbol azarkeşlərinə Azərbaycanda keçirilən mötəbər tədbir üçün "Ericsson"un innovativ "Elastik RAN" həllini tətbiq etmək bizim üçün xoş və sevindirici haldır"- deyə "Ericsson" şirkətinin Azərbaycan ofisinin rəhbəri Arda Çetiner söyləyib.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

## Elan

"Muğan bank" ASC-nin Mahmudov Dəyanət Daşqın oğluna(VÖEN: 1502945042) verdiyi 415676-415700 saylı pul kitabçası itdiyi üçün etibarsız sayılır.

Əmirova Məryəm İmaməddin qızının adına, Bakı şəhəri, Sabunçu rayonu, Pirşağı qəsəbəsi, Hüseynbala Əliyev keçəsində yerləşən torpaq sahəsinin çıxarışı itdiyi üçün etibarsız sayılır.

Cəfərov Niyazi Nəhməd oğluna Yasamal Rayon Hərbi Komissarlığı tərəfindən verilmiş müharibə veteranı (M/VN№ 013394) vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Orduxanov Fərrux Ürfan oğluna Yasamal Rayon Hərbi Komissarlığı tərəfindən verilmiş müharibə veteranı (M/VN№ 067661) vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Şükürlü Rəfiqə Yalçın qızına Bakı Slavyan Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Mikayılova Mədinə Mürşüd qızına Odlar Yurdu Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

"Sərbəst Xarrat" çoxsahəli kiçik müəssisəsinin 24 may 1995-ci il tarixli texniki pasportu itdiyi üçün etibarsız sayılır.

İraq İslam Respublika vətəndaşı Əl-Musavi Mömin Talal Cabir oğluna məxsus ümumvətəndaşlıq pasportu 30.05.2019-cu il tarixində itdiyi üçün etibarsız sayılır.

Əliyev Samir Kamil oğlunun adına, Bakı şəhəri, Binəqədi rayonu, M.Ə.Rəsulzadə qəsəbəsi, Fərrux Qayıbov küçəsi, ev 17 a ünvanının MA № 0111326 çıxarışı itdiyi üçün etibarsız sayılır

15.07.2019-cu il tarixində, saat 11:00-da Bakı şəhəri, Yasamal rayonu, A.Şərifzadə küçəsi 34, 3-cü mərtəbədə yerləşən konfrans zalında "Bərdə Broyler" ASC-nin səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcək. Gündəlikdə duran məsələlər: 1. "Bərdə Broyler" ASC-nin 2018-ci ilin yekunlarına dair maliyyə hesabatlarının təsdiq olunması. 2. "Bərdə Broyler" ASC-nin Müşahidə Şurasının tərkibində dəyişikliklər edilməsi. 3. "Bərdə Broyler" ASC tərəfindən 2018-ci ilin maliyyə ilinin yekunlarına əsasən səhmdarlara dividend ödənilməsi. 4. Digər məsələlər.

Səhmdarlardan qeyd olunan tarixdə ümumi yığıncaqda iştirak etmələri xahiş olunur.





**Qoç** - Yaşananların məzmununu anlamağa çalışın. Onsuz da gərgin olan əlaqələri ağırlaşdırmayın. Yeni ideyaları reallaşdırmağa tələsməyin. Olaylarda yeni mərhələ, dönüş anı yaxınlaşır.

**Buğa** - Daxili gərginliyin əsirinə çevrilərək gah bu, gah da başqa işi görməyin. Fəaliyyət arealında qayda yaradın. Başladığınız işləri yarımçıq qoymayın, məntiqi nəticə hasil olanadək dayanmayın.

**Əkizlər** - Hiperaktivlik etməyin, məzmununa bələd olmadığınız işlə bağlı təşəbbüsə qapılmayın. Məlumatlar toplayın, müşahidə edin, deyilənlərə qulaq asın. Müzakirələr və toplantılar üçün yaxşı zamandır.

**Xərçəng** - Maliyyə məsələlərində təşəbbüsləriniz uğurlu ola bilər. Təxirə salınmış, yaxud unudulmuş məsələlərdən biri yenidən gündəmə gələcək. İtirdiyiniz əşyanı tapmaq, can atdığınız məlumatı almaq şanslarınız var.

**Şir** - Sizin vaxtınızdır. Önəmli saydığınız məqsədə çatmaq üçün seçdiyiniz istiqamətdə qətiyyətlə, sürətlə irəliləyin. Situasiyanı planınıza uyğunlaşdırmaq üçün vacib addımları atın.

**Qız** - Sağlam həyat tərzini seçin. Xarici görkəminizdə və ümumiyyətlə, yaşamınızda nəyi dəyişəcəyinizə qərar verin. Aktiv olun, intensiv fəaliyyət göstərin. Ötənlərdə özünü dəfələrlə doğrultmuş metodları seçin.

**Tərəzi** - Qarışıq, mürəkkəb zamandır. Sizdən ələhiddə səbr və təmkin tələb olunur. Sizi münaqişəyə cəlb etməyə çalışacaqlar. Oyun qaydaları, qarşılıqlı münasibətlərin sxemləri dəyişir.

**Əqrəb** - Mürəkkəb əlaqələr hərəkətə gələrək yeni imkanlar yaradacaq. Şanslardan yararlanın. Əlavə seçim imkanı formalaşır. Bir neçə variantı nəzərdən keçirin. Perspektivi ola biləcək mövzu çərçivəsində fəaliyyət daha effektivdir.

**Oxatan** - Yanınızdakı insanların davranışlarında və sözlərindəki dəyişikliklərə fikir verin. Yaşananların məzmununu anlamağa çalışın. Məramlarınızı sürətlə dəyişməyin, yaxşı tanımadığınız insanlara sirr verməyin.

**Oğlaq** - Maraqlandığınız işlə məşğul olun. Həmkarlara, tərəfdaşlara, şəriklərə təzyiq göstərməyin. Maraqlarla məqsədləri razılaşdırsanız, işlərdə daha ciddi irəliləyişlərə nail ola bilərsiniz.

**Dolça** - Seçim zamanıdır. Mövqelərinizi möhkəmləndirin, yaxın ətrafınızdakı insanların sizə təzyiq məqsədilə reallaşdırdıqları manipulyasiyaların qarşısını alın. Eyni vaxtda bir neçə işlə məşğul olmayın.

**Balıqlar** - Əvvəlcədən hazırladığınız plan üzrə fəaliyyətinizi davam etdirin. Ştrix və detalları hazırlayın, işlərin gedişatına ciddi fikir verin. Münasibətlərdə problemlər yaratmayın. Fiziki işdə xeyir var.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

# "Nar" tələbələr üçün mobil şəbəkə gücünü nümayiş etdirdi

**"Nar" ölkənin yerli rabitə bazarında gənc mütəxəssislərin yetişməsi məqsədilə Azərbaycan Texniki Universitetinin (AzTU) magistr pilləsində təhsil alan tələbələr üçün mobil rabitə şəbəkəsi ilə əyani tanışlıq təlimi təşkil edib.**

"Nar"ın texniki heyətinin rəhbərliyi ilə tələbələr mobil şəbəkə haqqında təlim keçdikdən sonra şəhərin müxtəlif ərazilərində yerləşən baza və ötürücü stansiyaları, həmçinin, şəbəkə nəzarət otağını ziyarət ediblər.

Mühazirələr zamanı tələbələr bütün ölkə üzrə mobil şəbəkənin davamlılığına nəzarət edilməsi, texnoloji yeniliklərin tətbiqi və müştərilərin artan tələblərini qarşılanması barədə ətraflı öyrəniblər. "Nar"ın baza və ötürücü stansiyalarını yerində öyrənən tələbələrə şəbəkə cihazları haqqında məlumat verilib, qurğuların iş prinsipi və təhlükəsizliyə nəzarət mexanizmi öyrədilib.

Tələbələr "Nar"ın ölkə boyunca fasiləsiz işləyən 1800-dən çox 4G, 2670-dən çox 3G və ümumilikdə, 7500-dən çox mobil rabitə stansiyasının işinə nəzarət edən şəbəkə monitoringi otağını ziyarət ediblər. 24/7 rejimdə aparılan monitoring sayəsində "Nar" abunəçiləri yüksək keyfiyyətli zəng və internet xidmətlərindən kəsintisiz istifadə edirlər.

"Nar"la bir iş günü keçirən tələbələr yerli rabitə şirkətində əməkdaşlara yaradılan şəraitlə tanış olublar, onları gözləyən peşə imkanlarına və rabitə işinin incəliklərinə bələd olublar. Qeyri-rəsmi görüş zamanı tələbələr onları maraqlandıran sualları birbaşa "Nar" şəbəkənin idarəedicilərindən soruşmaq imkanı əldə ediblər.

Tələbələrin mobil rabitə şəbəkəsi ilə əyani tanışlıq təlimi "Nar" və AzTU arasında imzalanmış tərəfdaşlıq razılaşması çərçivəsində baş tutmuş növbəti layihədir. Buna qədər "Nar"ın rabitə mütəxəssisləri Texniki Universitetdə test rabitə mərkəzi və mobil rabitə təlimləri təşkil ediblər. Universitetlə razılaşmanın əsas niyyəti isə rabitə sahəsində gələcəyin yerli peşəkarlarını yetişdirmək və azərbaycanlı tələbələrin məzun olduqdan sonra rabitə bazarında əcnəbi həmkarlarından daha üstün biliyə sahib olmasını təmin etməkdir.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib."Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən, "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" keçirib və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanıb.

***Hazırladı: Ramil QULİYEV***

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

**Redaksiyanın ünvanı:** *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

**Tel-faks:** *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.